

Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 119 (8142) ŞƏNBƏ, 1 iyun 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan-Polşa münasibətlərində yeni mərhələ

## Polşa Prezidentinin Azərbaycana rəsmi səfəri

## Rəsmi qarşılanma mərasimi

Azərbaycan Respublikasına rəsmi səfərə gələn Polşa Respublikasının Prezidenti Andjey Dudanın mayın 31-də rəsmi qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Polşa Prezidenti Andjey Dudanı qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Polşa Prezidentinə raport verdi.

Prezident İlham Əliyev və Prezident Andjey Duda fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

Polşa Prezidenti Azərbaycan əsgərlərini salamladı.

Polşanın və Azərbaycanın Dövlət himnləri səsləndi.

Azərbaycanın dövlət və hökumət nümayəndələri Prezident Andjey Dudaya, Polşa nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Polşa Prezidenti Andjey Dudanın qarşısından keçdi.

Prezidentlər rəsmi foto çəkdirdilər.













# Milli Məclisin yaz sessiyası başa çatdı

## Sonuncu iclasda 2018-ci ilin dövlət büdcəsinin icrası müzakirə olundu

Milli Məclisin mayın 31-də keçirilən növbəti plenar iclasında "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (birinci oxunuş) müzakirə edildi.




Əvvəlcə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri **Ziyad Səmədzadə** layihə və ötən ilin makroiqtisadi göstəriciləri barədə məlumat verdi. Qeyd etdi ki, 2018-ci il Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi həyatında ən yaddaqalan illərdən olub. Ötən il Azərbaycanın dövlət müstəqilliyinin 100 illiyi qeyd edilib. Bu münasibətlə keçirilən tədbirdə dövlət başçısı İlham Əliyev ölkəmizin müstəqillik illərində əldə etdiyi uğurlardan danışaraq deyib ki, öz potensial imkanlarından daha səmərəli istifadə edən Azərbaycan dünyanın dinamik inkişaf edən nüfuzlu dövlətlərindən birinə çevrilib. Bu baxımdan 2018-ci ilin uğurları təqdirəlayiqdir.

Komitə sədri qeyd edib ki, ötən il əhalinin adambaşına düşən gəlirləri 8,2 faiz, inflyasiya təkrəqəmli olub, manatın məzənnəsi sabit qalıb. Enerji daşıyıcılarının qiymətlərindəki pozitiv dinamika xarici ticarət balansının müsbət nəticələnməsinə səbəb olub. 2018-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 30,9 faiz artaraq, 31,8 milyard dollar təşkil edib. Tədiyə balansında 20,3 milyard manatlıq müsbət saldo yaranıb. Burada qeyri-neft əmtəə ixracının 9,8 faiz artmasını xüsusi qeyd etmək lazımdır. Bütövlükdə ticarət balansında yaranmış müsbət saldo gələcəkdə böyük işlərin görülməsinə imkan yaradıb. Valyuta ehtiyatlarımız ötən il 44,5 milyard manat təşkil edib. Bu göstərici xarici dövlət borcundan 5 dəfə çox olmaqla 4 ildən artıq bir dövr üzrə mal və xidmətlərin idxalına bərabərdir.

Qeyd edək ki, təqdim olunmuş hesabata əsasən, 2018-ci ildə dövlət büdcəsinin gəlirləri 22 milyard 149 milyon manat proqnoza qarşı 22 milyard 508,9 milyon manat və ya 101,6 faiz təşkil etmişdir. Bu da 2017-ci illə müqayisədə 36,3 faiz çoxdur.

Ardı 6-cı səh.

# Məhsul istehsalının 80 faizi özəl sektorun payına düşür

## Bu, ölkədə sahibkarlığın inkişafının göstəricisidir

Danılmaz faktdır ki, həyata keçirilən islahatlar sayəsində qeyri-neft sektorunun inkişaf etməsi ölkədə iqtisadi sabitliyin təminatında mühüm rol oynayır. Qeyri-neft sektoruna aid olan müəssisələrin çoxu isə özəl sektora məxsusdur. Bu həm də o deməkdir ki, yerli sahibkarlar qeyri-neft sektorunun inkişafında xüsusi çəkiyə malikdirlər. Azərbaycanı seçən xarici investorlar da artıq neçə vaxtdır qeyri-neft sektoruna sərmayə qoymağa maraq göstərirlər.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətin özəl sektorun inkişafına böyük önəm verdiyini vurğulayaraq demişdir: "Əgər əvvəlki illərdə daha çox neft-qaz sektoruna sərmayə qoyuluşu təmin edilirdisə, hazırda biz bunu qeyri-neft sektorunda görürük və bu da aparılan işlərin nəticəsidir. Çünki Azərbaycanda biznes mühiti yaxşılaşır, sərmayə qoyuluşu üçün daha yaxşı şərait yaradılır, həm yerli, həm xarici sərmayələr dövlət tərəfindən lazımi səviyyədə qorunur. Beləliklə, biz xarici və daxili sərmayəni cəlb etməklə ölkəmizi inkişaf etdiririk. Əlbəttə ki, Azərbaycana sərmayə qoyuluşunun perspektivləri üçün apardığımız islahatlar başlıca rol oynayır. Bildiyiniz kimi, Dünya Bankı "Doing Business" hesabatında Azərbaycanı 25-ci yerə layiq görüb. Biz il ərzində 32 pillə irəliləmişik və ən islahatçı 10 ölkə sırasında yer almışıq. Əlbəttə, xarici investorlar, eyni zamanda, yerli sahibkarlar bunu görürlər, bilirlər və beləliklə, Azərbaycana sərmayə qoyuluşu prosesi, əminəm ki, bundan sonra da təmin ediləcəkdir".

Dövlət başçısının da qeyd etdiyi kimi, ölkədə sahibkarlığın inkişafı üçün hər cür şərait yaradılır. İqtisadi islahatlar sayəsində ölkədə investisiya mühiti yaxşılaşdırılır, sahibkarlara çoxsaylı güzəştlər edilir. Dövlət dəstəyi sayəsində maliyyə imkanlarını artıran sahibkarlar mövcud iş yerlərini genişləndirir və ya yeni iş yerləri yaradırlar.

Ardı 6-cı səh.

# Azərbaycanın zəfəri, cığalın uğursuzluğu

## UEFA Avroliqasının finalına evsahibliyi edən Bakı hər cür təqdirə layiqdir

UEFA Avropa Liqasının final matçını yüksək səviyyədə təşkil edən Bakı ev sahibi kimi növbəti dəfə bacarığını təsdiqlədi. İngiltərənin "Arsenal" və "Çelsi" klublarının paytaxtımıza gələn azarkeşləri sürətlə inkişaf edən şəhərlə tanış oldu, futbol kimi gözəl oyundan zövq aldı, vətənə xoş təəssüratla qayıtdılar. Bakının qonaqları heç bir problemlə üzləşmədi, mehriban, qonaqpərvər xalqla qarşılaşdılar.



UEFA-nın rəhbərliyi, qitənin idman ictimaiyyəti Avroliqanın final görüşünün azərbaycanlı təşkilatçılarını alqışladı, belə bir mühüm matçın tələb olunan səviyyədə hazırlanıb keçirilməsindən məmnunluq ifadə etdi. Bakıda xüsusilə hüquq mühafizə orqanlarının səmərəli fəaliyyəti diqqəti daha çox cəlb etdi: görülmüş təhlükəsizlik tədbirləri hər hansı arzuolunmaz hadisəni istisna etdi. Halbuki gələnlər adi azarkeşlər yox, davakarlığı ilə dünyada ad çıxarmış ingilis fanatları idilər. Yerli əhali ilə qonaq azarkeşlər arasında qarşılıqlı münasibətlər ən yüksək səviyyədə idi.

Bütün bunlar tamamilə təbiidir. Çünki azarkeş futbola baxmağa gəlir, dəstəklədiyi komandanın yanında olur, onun qalib gəlməsi üçün əlindən gələni edir, arzusu çin olanda sevinir, dəstəklədiyi klub matçdan məğlub ayrılanda məyus olur. Futbolçunun özü də oyun oynamaq üçün gəlir, qarşıya qoyduğu məqsədə nail olmaq üçün bütün qabiliyyətini nümayiş etdirməyə çalışır.

Bununla belə, Avroliqanın final görüşündən əvvəl və sonra baş vermiş bəzi hadisələrdən ibrət götürüb nəticə çıxarmağa dəyər. Hadisələr göstərdi ki, futbol adı ilə Azərbaycana gələn məsul şəxslərin, eləcə də final görüşünə Bakı Olimpiya Stadionunda yox, televiziya ekranı qarşısında tamaşa etməyi üstün tutanların bir hissəsi səmimiyyətdən tamamilə uzaq imiş.

Ardı 6-cı səh.

# Azərbaycan-Polşa münasibətlərində yeni mərhələ

## Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanlar var



Mayın 31-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın təkbətək görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu. Əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı. Polşa Prezidenti Andjey Dudanın Azərbaycana rəsmi səfərinin ikitərəfli münasibətlərin genişlənməsinə töhfə verəcəyi bildirildi.

Söhbət zamanı ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Andjey DUDA: "Sizin atdığınız hər bir addım uğur gətirir"

Mayın 31-də təkbətək görüş başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

AZƏRTAC xəbər verir ki, prezidentlər görüşdə çıxış etdilər.

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar.

Mən Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, səfər uğurlu keçəcək və səfər nəticəsində əlaqələrimiz daha da yüksək səviyyəyə qalxacaqdır.

Mən sizin gözəl ölkənizə öz səfərimi məmnuniyyətlə xatırlayıram. Biz Sizinlə çox geniş fikir mübadiləsi apardıq və gələcək planlar haqqında danışdıq. Bu gün isə yüksəksəviyyəli siyasi dialoq davam etdirilir. Bu gün keçirdiyimiz təkbətək görüşdə bir daha ikitərəfli əlaqələrimizin gündəliyinə nəzər saldıq və gələcək planlar haqqında danışdıq. Bizim əlaqələrimiz çoxşaxəlidir, həm siyasi sahədə, iqtisadi sahədə, digər sahələrdə əməkdaşlıq edirik. Əminəm ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza çox güclü təkan verəcək.



Bir daha Sizi səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

❖ ❖ ❖

Polşa Prezidenti **Andjey DUDA** dedi:

- Zati-aliləri, çox hörmətli cənab Prezident.

Məni buraya dəvət etdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Mənə göstərilən səmimi qonaqpərvərliyə görə çox minnətdaram.

Düzgün qeyd etdiniz, bu, mənim Azərbaycana ilk səfərimdir. Mən Bakını ilk dəfədir ki, görürəm. Ölkə və olduqca gözəl şəhər mənə böyük təəssürat bağışladı.

Mən, həmçinin fürsətdən istifadə edib Sizi təbrik etmək istəyirəm. Çünki Sizin atdığınız hər bir addım uğur gətirir. Əminəm ki, bu, nəinki mənim təəssüratımdır, digərlərinin də təəssüratı eynidir.

Dünən biz gözəl yerlərdə olduq, gözəl abidələri gördük, həmçinin küçələrinizi seyr etdik. Bunların əsasında məhz Sizin işiniz, fəaliyyətiniz dayanır. Bu da əslində, bizdə çox yaxşı təəssürat yaradır. Sizi təbrik edirəm. Mən buraya səfər etməkdən çox şadam. Cənab Prezident, mən açıq şəkildə söyləmək istəyirəm ki, uzun illər ərzində ölkələrimiz müxtəlif sahələrdə səmərəli şəkildə əməkdaşlıq ediblər.



## Azərbaycan-Polşa sənədləri imzalandı

Mayın 31-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Andjey Dudanın iştirakı ilə Azərbaycan-Polşa sənədlərinin imzalanması mərasimi olub.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Polşa Respublikasının bitki mühafizəsi və toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasında fitosanitariya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli və Polşa Respublikasının bitkilərin sağlamlığı və toxumçuluq üzrə təftiş müfəttişi Andjey Xodkovski imzaladılar.

"Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov və Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı naziri Kriştof Ardanovski imzaladılar.

"Azərbaycan Respublikası Hökuməti ilə Polşa Respublikası Hökuməti arasında məxfi məlumatların mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"i Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi Mədət Quliyev və Polşa Respublikasının Daxili Təhlükəsizlik Agentliyinin sədr müavini Kriştof Vatslavek imzaladılar.

## İlham ƏLİYEV: "Siyasi əlaqələrimiz yüksək səviyyədədir"





Mayın 31-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda mətbuata bəyanatlarla çıxış ediblər.

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz. Bu, Sizin Azərbaycana ilk səfərinizdir. Əminəm ki, bu səfər Polşa-Azərbaycan əlaqələrinin inkişafına çox güclü təkan verəcəkdir.

Mən Sizin ölkənizə öz rəsmi səfərimi xatırlayıram. İki il bundan əvvəl biz Sizinlə Polşada görüşmüşdük və o görüş zamanı ikitərəfli əlaqələrimizin gələcək inkişafı haqqında fikir mübadiləsi aparmışdıq. Hesab edirəm ki, iki il ərzində biz böyük yol keçmişik və müxtəlif sahələr üzrə uğurlu əməkdaşlıq formatı yaradılıb. Xüsusilə Polşa və Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, çox önəmli sənəddir və bizim əlaqələrimizin mahiyyətini əks etdirir. Biz, doğrudan da, strateji tərəfdaşıq.

Siyasi əlaqələrimiz yüksək səviyyədədir. Yüksəksəviyyəli qarşılıqlı səfərlər bunu əyani şəkildə təsdiqləyir. Bu gün müzakirə olunan mövzularla bağlı bizdə fikir ayrılığı yoxdur. Biz istəyirik ki, ikitərəfli əlaqələrimiz bütün sahələrdə inkişaf etsin.

Hesab edirəm ki, biz iqtisadi sahədə daha da fəal işləməliyik. Çünki ticarət dövriyyəsi hələ ki o qədər də böyük deyil, halbuki potensial var. Bu gün biz bu barədə də danışdıq və müəyyən etdik ki, növbəti mərhələdə biznes qurumlarının müntəzəm olaraq bir araya gəlməsi nəticəsində ticarət dövriyyəsi artmalıdır. Bu gün keçiriləcək biznes forum əlbəttə ki, buna nail olmaq üçün çox önəmli bir vasitədir. Bilirəm ki, forumun işinə həm Polşadan, həm Azərbaycandan çox böyük maraq var. Hesab edirəm ki, Polşa və Azərbaycan biznes dairələri bir-biri ilə sıx əlaqə quraraq həm özləri, həm də ölkələrimiz üçün fayda gətirə bilərlər.

Hesab edirəm ki, sərmayə qoyuluşu baxımından bizim aramızda heç bir fikir ayrılığı yoxdur. Biz qarşılıqlı sərmayə qoyuluşu ilə bağlı fəal işləməliyik və ölkəmizdə gözəl sərmayə iqlimi var. Ümid edirəm ki, Polşa şirkətləri bu imkanlara diqqətlə baxacaqlar. Eyni zamanda, Azərbaycan şirkətlərinə də tövsiyə edirəm Polşadakı imkanlara baxsınlar ki, bizim aramızda olan iqtisadi və ticarət əlaqələri daha da genişlənsin. Keçən il Polşada Azərbaycanın Ticarət Evi açılmışdır. Bu, kiçik də olsa, önəmli addımdır. Hesab edirəm ki, bundan sonra bu istiqamətdə daha böyük addımlar atılacaq.

Bu gün, eyni zamanda, nəqliyyat sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı. Qeyd olundu ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri ölkələrimiz üçün böyük önəm daşıyır. Azərbaycan bu sahədə öz işlərini görür. Mövcud nəqliyyat və logistika imkanları yeni bir vəziyyət yaradır. Yəni, Azərbaycan nəqliyyat mərkəzlərinin birinə çevrilir və əlbəttə, ərazimizdən keçən yüklərin həcmi də əminəm ki, artacaq.

Energetika sahəsində əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparılmışdır. Bu sahədə də böyük potensial, qarşılıqlı maraq var. Müvafiq qurumlar, bizim şirkətlərimiz bu məsələ ilə bağlı indi işləyirlər və danışıqları davam etdirirlər.

Biz bu gün, eyni zamanda, digər sahələrdəki əməkdaşlıq haqqında fikir mübadiləsi apardıq. Kənd təsərrüfatı, turizm və digər sahələrdə yaxşı imkanlar var. Həm əldə edilmiş nailiyyətlər, həm də yeni imkanlar mövcuddur və biz bu imkanlardan istifadə etməliyik.

Cənab Prezidentlə təkbətək görüşümdə mən, eyni zamanda, regional vəziyyətlə bağlı öz fikrimi bildirdim. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyini ifadə etdim. Bu münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çıxmalıdır və ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Bunu həm tarixi ədalət tələb edir, həm də beynəlxalq hüquq tələb edir.

Bir sözlə, səfərin uğurlu keçməsi artıq reallıqdır. Əminəm ki, səfərin ikinci hissəsində də əldə ediləcək razılaşmalar bizim ümumi ikitərəfli əməkdaşlığımıza çox böyük təkan verəcək, bu əməkdaşlıq inkişaf edəcək və biz bunu istəyirik. Səfərin uğurlu keçməsi artıq onu göstərir ki, hər iki tərəfdən çox güclü siyasi iradə var.

Bir daha cənab Prezident, xoş gəlmisiniz və Sizə xoş səfər arzulayıram. Sağ olun.

### Polşa Prezidenti Andjey Dudanın bəyanatı

- Zati aliləri, cənab Prezident.

Xanımlar və cənablar.

Əvvəlcə mən, cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. Siz iki il öncə ölkəmizə səfər etdiniz. Həmin vaxtdan etibarən bizim ikitərəfli münasibətlərimiz daha da inkişaf etdi və bu, əslində Sizinlə mənim aramda olan şəxsi münasibətlərin də başlanğıcı oldu. Cənab Prezident, məni Azərbaycana, Bakıya dəvət etdiyinizə görə çox minnətdaram. Mən bu dəvəti məmnunluqla qəbul etdim və bu səfər artıq baş tutur. Cənab Prezident, Sizinlə görüşmək mənim üçün şərəf oldu. On il öncə - hətta həmin vaxtdan da uzun müddətdə Polşanın keçmiş Prezidenti Lex Kaçinski Sizinlə görüşdü. O vaxt o, Sizi özünün yaxın dostu adlandırdı. Həmin vaxtdan etibarən ikitərəfli münasibətlərimiz inanılmaz dərəcədə gücləndi, Polşa ilə Azərbaycan arasındakı münasibətlər daha güclü şəkildə inkişaf etdi. Cənab Prezident, mən Sizin bu münasibətinizi yüksək dəyərləndirirəm.

Bu gün isə mənim səfərim həyata keçirilir. Biz bu gün əməkdaşlığımızın bütün sahələrini nəzərdən keçirdik və Prezident Lex Kaçinskinin faciəvi ölümündən sonra itirilmiş vaxtı aradan qaldıra bildik. Cənab Prezident, biz daha çox səfərlər, təmaslar mübadilə etdik. Bu gün biz razılaşmalara imza atdıq. Biz artıq əməkdaşlığımızın yeni erasına başlayırıq. Bununla biz əldə etdiyimiz razılaşmalara, kənd təsərrüfatı sahəsindəki əməkdaşlığa artıq böyük ümidlər bəsləyə bilərik. Hesab edirəm ki, bununla da Polşa fermerlərinin ixrac imkanları daha da genişlənəcək.

*Ardı 3-cü səh.*

# Azərbaycan-Polşa münasibətlərində yeni mərhələ

## İlham ƏLİYEV: "Siyasi əlaqələrimiz yüksək səviyyədədir"

Əvvəli 2-ci səh.

Kənd təsərrüfatı sahəsində avadanlıq, həmçinin kimya sənayesi məhsullarının, gübrələrin ixrac edilməsi imkanları genişlənəcək. Bilirəm ki, Azərbaycanda bu sahədə inkişaf gedir. Əslində, qeyd etməliyəm ki, Azərbaycan bizim mühüm ticari tərəfdaşımızdır. Məlumdur ki, 2010-cu ildən sonra bütün dünyanı maliyyə böhranı bürüdü. Buna baxmayaraq, hazırda biz ticari münasibətlərimizin səviyyəsini yenidən artırırıq.

Cənab Prezident, bu, mənim cavab səfərimdir. Hesab edirəm, cənab Prezident, Sizin səfəriniz və mənim səfərim ölkələrimizə iqtisadi münasibətlərin genişləndirilməsi üçün yeni üfüqlər açacaqdır. Biznes forumu təşkil etdiyinizə görə təşəkkürümü bildirirəm, cənab Prezident. Biz bu gün həmin tədbirdə iştirak edəcəyik. Həmin tədbir çərçivəsində azərbaycanlı sahibkarlar polşalı sahibkarlarla görüşəcəklər. Bu da yeni təmasların qurulmasına imkan yaradacaq və nəticədə daha çox müqavilələr imzalanacaq. Bu isə bizim qarşılıqlı iqtisadi mübadilələrimizi artıracaq.

Hörmətli cənab Prezident, hesab edirəm ki, biz yeni imkanlar yaradırıq. Hazırda mən səbirsizliklə gözləyirəm ki, hər iki ölkənin biznes icması görüşsün. Hesab edirəm ki, Sizin ölkənizdəki Ələt Beynəlxalq Dəniz Ticarət Limanında yaradılan azad sənaye zonasında Polşa şirkətlərinin də nümayəndəliyi olmalıdır. Sizin ölkəniz artıq bir qovşağa çevrilməkdədir və istərdik ki, Polşa şirkətləri buraya gəlməklə, fəaliyyət göstərməklə bizim mübadilələrimizə böyük töhfə versinlər. Biz Bakının yaxınlığında yerləşən Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarından istifadə etmək istəyirik. Ümidvarıq ki, Polşa şirkətləri bu imkanlardan yararlanacaq.

Cənab Prezident, biz bu gün enerji sektoru haqqında danışdıq. Biz, həmçinin multimodal daşımalar dəhlizləri haqqında fikir mübadiləsi apardıq. Burada, həmçinin Xəzər dənizi vasitəsilə Qafqaz ölkələrinə, İrana, Ukraynaya, Polşaya, Mərkəzi Asiyaya və Çinə çıxış imkanları müzakirə olundu. Bütün bunlar məhz nəqliyyat sahəsinə aid olan məsələlərdir. Həmçinin bu bağlılıq və iqtisadi münasibətlər daşımalar baxımından olduqca vacibdir ki, biz Avropa İttifaqının bir hissəsi olaraq bu bölgədən istifadə edək. Bununla biz bu prosesləri qarşılıqlı şəkildə genişləndirə biləcəyik. Gələcəkdə neft və qaz sahəsində əməkdaşlığımızı genişləndirmək fikrindəyik. Biz Azərbaycanın ərazisindən istifadə edərək nəqliyyat daşımaları sahəsində də azərbaycanlı həmkarlarımızla birgə işləyəcəyik. Bildiyiniz kimi, Çin genişmiqyaslı "Bir kəmər, bir yol" təşəbbüsünü irəli sürmüşdür. Mənə elə gəlir ki, mühüm strateji mövqeyə malik Azərbaycan Polşa ilə birgə işləyərək Avropaya yeni bir pəncərə aça bilər. Fikrimcə, bu, hər ikimiz üçün çox vacibdir ki, biz bu dəhlizin bir hissəsi olaq.

Bu gün, cənab Prezident, Siz ərazi bütövlüyü məsələsinə toxundunuz və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyinizi bildirdiniz. Bilirik ki, bu məsələ uzun illərdir həll olunmamış qalır. Hazırda biz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvüyük. Biz bəyan etmək istəyirik ki, Azərbaycan bu münaqişənin beynəlxalq hüququn normaları əsasında həllində hər zaman bizim dəstəyimizə arxalana bilər. Biz bu problemin sülh yolu ilə həll olunmasında Sizə yardım edəcəyik. İstəyirik, arzumuzu bildirək ki, bu, belə də olsun. Biz istərdik ki, Minsk qrupu çərçivəsində aparılan danışıqlar bundan sonra da davam etsin və müsbət nəticələr gətirsin. Beləliklə, bu uzunmüddətli münaqişə öz həllini tapa bilər.

Həmçinin biz istərdik ki, Avropa İttifaqı ilə Azərbaycan arasında çərçivə sazişinə dair aparılan danışıqlar da tezliklə başa çatdırılsın. Bu, həm Azərbaycan vətəndaşları, həm də Avropa İttifaqı vətəndaşları üçün imkanlar yaradacaq. İstərdik ki, Azərbaycan, həmçinin Dünya Ticarət Təşkilatına üzvlük baxımından da nəticələr əldə etsin. Əslində bu da bizim ikitərəfli iqtisadi münasibətlərimizə müsbət təsir göstərəcək.

Sonuncu vacib bir məqamı, cənab Prezident, bildirmək istəyirəm ki, biz polşalılar tarixən Azərbaycanda olmuşuq. Uzun illər ərzində, - mən bunu xüsusi qeyd etmək istəyirəm, - demək olar ki, yüz ildən də çox əvvəl Polşa memarları Azərbaycanda yaşayıblar, yaradıblar. Bir çox polyaklar, Polşanın ziyalı dairələrinin təmsilçiləri də burada olublar. Burada mən Polşa memarlarını xüsusi qeyd etmək istəyirəm. Bakının özünəməxsus gözəlliyinin yaradılmasında, abidələrinin qurulmasında Polşa memarları mühüm rol oynayıblar. Polşa memarları tərəfindən yaradılan həmin abidələrə bu gün xüsusi qayğı göstərilir. Onlar yeni çalarda öz gözəlliyi ilə bizi cəlb edir.

Cənab Prezident, buna görə mən Sizə təşəkkürümü bildirirəm ki, bu gün biz, həmçinin Bakının mərkəzində Polşa memarlarının adını daşıyan küçəni açacağıq. Küçənin adı da çox böyük rəmzi məna daşıyır. Hesab edirəm ki, obrazlı desək, Polşa memarlarının xatirəsi bir daha əbədiləşdiriləcək.

Hörmətli cənab Prezident, demək istəyirəm ki, bu binaları seyr edərkən bizim qəlbimizdə nostalji fikirlər yaranır. Çünki İkinci Dünya müharibəsi zamanı alman faşistləri bizim şəhərlərimizin tarixi abidələrini dağıtmışdılar. Biz həmin mirası yenidən bərpa etməkdə müəyyən çətinliklərlə üzləşdik. Lakin Bakıda bu abidələr çox yüksək səviyyədə qorunub saxlanmışdır. Mən bunu bu gün böyük fərəh hissi ilə qeyd edirəm. Bu gün Bakıda - Azərbaycanın paytaxtında olarkən, qeyd edirəm ki, Sizin çox qiymətli tarixi mirasınız var. Bu mirasın yaradılmasında Polşa memarları da iştirak ediblər.

Cənab Prezident, Sizə bir daha təşəkkürümü bildirirəm.

❖❖❖

Sonra Azərbaycan və Polşa prezidentləri ölkələrimizin mədəni və tarixi irsini əks etdirən poçt markalarını qarşılıqlı olaraq təqdim ediblər.

## Andjey DUDA: "Azərbaycan Polşa şirkətləri üçün çox cəlbedici bir məkandır"






Mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumda iştirak ediblər.

Dövlət başçıları biznes forumda nitq söylədilər.

### Prezident İlham Əliyevin nitqi

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, biznes forumun iştirakçıları.

Cənab Prezident, Sizi bir daha salamlayıram. Biz Sizinlə səhərdən bir yerdəyik. Bu gün Sizin Azərbaycana rəsmi səfəriniz çərçivəsində geniş fikir mübadiləsi aparılmışdır, müxtəlif mövzular ətrafında danışılmışdır və artıq demək olar ki, səfər çox uğurludur. Əminəm ki, bu səfər Polşa-Azərbaycan əlaqələrinin gələcək inkişafına çox böyük təkan verəcəkdir.

Bizim görüşlərimiz müntəzəm olaraq keçirilir. Mən Polşaya öz səfərimi böyük məmnuniyyətlə xatırlayıram. Eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində də görüşürük, danışırıq və bu görüşlər ikitərəfli əlaqələrimizə çox böyük fayda verir. Bu gün isə biznes forum çərçivəsində Polşa-Azərbaycan biznes dairələrinin nümayəndələri bir araya gəliblər və bu da təbiidir. Çünki bizim yüksək səviyyədə siyasi əlaqələrimiz imkan verir ki, biznes dairələri də bir-biri ilə sıx təmasda olsunlar.

Bilirəm ki, forum çərçivəsində bir neçə saziş imzalanacaq. Bu, onu göstərir ki, forumun real nəticələri olacaqdır. Amma gələcəkdə əlbəttə ki, bu sazişlərin sayı daha da çox ola bilər. Çünki qarşılıqlı maraq kifayət qədər böyükdür. Sadəcə olaraq, biznes dairələri bir-birini yaxından tanımalıdırlar və biznes imkanlarını araşdırmalıdırlar. Hesab edirəm ki, Prezident Dudanın səfəri bu baxımdan çox əhəmiyyətlidir. Çünki bəzi hallarda məlumat qıtlığı imkan vermir ki, biznes dairələri bir-biri ilə sıx əlaqə qura bilsinlər.

Biz çox maraqlıyıq ki, ticarət dövriyyəsi artsın. Bu gün bu barədə kifayət qədər geniş fikir mübadiləsi aparılmışdır. İxrac-idxal əməliyyatlarının artırılması üçün konkret addımlar atılır. Keçən il Polşada Azərbaycanın Ticarət Evi açılmışdır. Hesab edirəm ki, bu, önəmli addımdır və Azərbaycanda istehsal olunan məhsullar bu Ticarət Evi vasitəsilə təqdim ediləcək. Biz sərmayə qoyuluşu ilə bağlı fikir mübadiləsi apardıq. Hesab edirəm ki, burada da imkanlar var, sadəcə olaraq, biz öz səylərimizi düzgün istiqamətə yönəltməliyik ki, sərmayə qoyuluşu sahəsində səmərə əldə olunsun.

Mən hesab edirəm ki, biznes dairələri üçün əməkdaşlıq çox faydalı ola bilər. Azərbaycanda, ümumiyyətlə, biznes mühiti müsbətdir və son illər ərzində bu istiqamətdə böyük irəliləyiş var. Dünya Bankı da bunu qeyd edir. Dünya Bankının "Doing Business 2019" hesabatında biznes mühitinin səviyyəsinə görə Azərbaycan 25-ci yerdədir və 10 ən islahatçı ölkə arasındadır. Ona görə sərmayə qoyuluşu məsələləri ilə bağlı çox böyük işlər görülür. Həm neft-qaz sektoruna, həm qeyri-neft sektoruna on milyardlarla dollar sərmayə qoyulmuşdur. Xarici sərmayələr lazımi səviyyədə qorunur və hər bir ölkə üçün bu, önəmlidir. Çünki biznes mühitinin yaxşılaşdırılması nəticəsində həm iş adamları özlərini daha rahat hiss edirlər, həm də dövlətlər daha böyük fayda götürür.

Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar imkan verir ki, biz öz maliyyə imkanlarımızı genişləndirək. Xarici dövlət borcu aşağı səviyyədədir, biz çalışırıq ki, daha da aşağı səviyyəyə endirək. Hazırda bu, ümumi daxili məhsulun 19 faizini təşkil edir. Biz beynəlxalq maliyyə qurumları ilə fəal əməkdaşlıq edirik və onlar Azərbaycanda gedən islahatlara müsbət qiymət verirlər.

Ölkəmizdə həyata keçirilən infrastruktur layihələri biznes şəraitini daha da yaxşılaşdırır. Çünki yollar, kommunikasiyalar olan yerlərdə, əlbəttə ki, biznes dairələri də özlərini daha rahat hiss edirlər. Son illərdə Azərbaycanda infrastruktur layihələrinin icrasına çox böyük diqqət yetirilmişdir. Hesab edirəm bu sahədə əldə edilmiş nəticələr deməyə əsas verir ki, bu layihələr öz bəhrəsini verir, həm insanlara rahatlıq gətirir, eyni zamanda, iş adamlarının fəaliyyətini yüngülləşdirir. Yol tikintisi, qazlaşdırma, elektrik enerjisi ilə bağlı aparılan bütün bu işlər, o cümlədən biznes üçün gözəl şərait yaradır.

Azərbaycanda nəqliyyat sektorunun inkişafı son illərdə prioritet məsələ kimi qalır və bu gün biz bu barədə fikir mübadiləsi apardıq. Azərbaycanda yaradılmış müasir nəqliyyat infrastrukturu həm ölkə daxilində, həm də regional çərçivədə əhəmiyyətlidir. Son illər ərzində Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində atılmış addımlar artıq öz səmərəsini verir. Biz müasir nəqliyyat və logistika infrastrukturu yaratmışıq. Əlbəttə ki, bunun biznes dairələri üçün çox böyük əhəmiyyəti, çox böyük faydası var. Çünki nəqliyyat infrastrukturu olmadan biznesin inkişafından söhbət gedə bilməz.

Azərbaycan ənənəvi olaraq enerji sektorunun inkişafına böyük diqqət göstərir. Ancaq bizim əsas məqsədimiz qeyri-enerji sektorunun inkişafıdır. Bir sözlə, iqtisadiyyatın şaxələndirilməsi bizim üçün prioritetdir və son illərdə bu istiqamətdə addımlar atılıb. Hesab edirəm ki, Polşa-Azərbaycan biznes dairələrinin birgə fəaliyyəti nəticəsində bu sahəyə də diqqət göstəriləcək.

Biz bu gün kənd təsərrüfatı sahəsində artıq nəticə hasil etmişik və saziş imzalanmışdır. Polşanın bu sahədəki təcrübəsi bizim üçün çox əhəmiyyətlidir. Bizim ölkəmizin inkişafı, o cümlədən iş yerlərinin yaradılması üçün kənd təsərrüfatının çox böyük əhəmiyyəti var. Hesab edirəm ki, biz bu sahədə sürətli əməkdaşlıq aparmaq üçün yaxşı imkanlara malikik.

Son illərdə Azərbaycanda turizmin inkişafı geniş vüsət alıb. Polşa vətəndaşları sadələşdirilmiş viza rejimi əsasında ölkəmizə gələ bilirlər. Hesab edirəm ki, qarşılıqlı təqdimatlar keçirilməlidir. Yəni, insanlarımız bir-birilərini daha yaxından tanımalıdır ki, turizm daha da sürətlə inkişaf etsin və qarşılıqlı səfərlər həyata keçirilsin.

Beləliklə, yüksəksəviyyəli siyasi əlaqələr imkan verir ki, biznes sahəsində də yaxşı nəticələr olsun. Hazırda aramızdakı ticarət dövriyyəsi bizim potensialımızı əks etdirmir. Ticarət dövriyyəsini artırmaq üçün, ilk növbədə, biznes dairələri daha fəal olmalıdırlar, biz isə öz tərəfimizdən onlara hər zaman dəstək veririk. Prezident cənab Andjey Duda ilə bugünkü biznes forumdakı iştirakımız bu dəstəyin növbəti təzahürüdür.

Mən Polşa və Azərbaycan iş adamlarına yeni uğurlar arzulayıram. Arzu edirəm ki, sizin aranızdakı əməkdaşlıq yaxşı nəticələrə gətirib çıxarsın. Sağ olun.

### Polşa Prezidenti Andjey Dudanın nitqi

- Hörmətli cənab Prezident.

Hörmətli nazirlər.

Hörmətli Polşa və Azərbaycan biznes nümayəndələri.

Hörmətli sahibkarlar.

Cənab Prezident, ilk növbədə, Sizə dərin təşəkkürümü bildirirəm. Biz Azərbaycanın bu sahədəki qurumlarına təşəkkürümüzü bildiririk ki, onlar bu biznes forumu bizim üçün təşkil etdilər, tikinti sahəsində və digər sahələrdə çalışan Azərbaycan və Polşa şirkətlərini bir araya gətirdilər.

Son illər ərzində, ümumiyyətlə, bizim münasibətlərimiz çox intensivləşmişdir. Azərbaycan Cənubi Qafqaz regionunun lider ölkəsidir və Polşa şirkətləri üçün çox cəlbedici bir məkandır. Polşa tərəfi Azərbaycan ilə Avropa İttifaqı arasında bu sahədəki tərəfdaşlığın dərinləşməsində maraqlıdır. Biz Avropa İttifaqının fəal üzvüyük. Qeyd etmək istəyirik ki, biz məhz Azərbaycan ilə Avropa İttifaqı arasında əhatəli əməkdaşlıq sazişinin imzalanmasında olduqca maraqlıyıq.

Bu gün Polşa ilə Azərbaycan arasında bir sıra razılaşmalar imzalandı. Bu da əslində bizim münasibətlərimizin yeni bir səhifəsini göstərir. Biz Polşa tərəfi olaraq uzun müddətdir Avropa İttifaqının üzvüyük və bu mövqedən çıxış edərək istərdik ki, Avropa İttifaqı öz əməkdaşlıq qapılarını daha geniş açsın və yalnız müttəfiqlər haqqında düşünməsin, həmçinin digər ölkələrlə də əməkdaşlıq imkanlarını genişləndirsin. Biz çox şadıq ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlıq edir. Bununla biz, həmçinin ikitərəfli siyasi və iqtisadi əməkdaşlığımızı da inkişaf etdirmiş oluruq.

Bu gün iqtisadi təşəbbüslərə gəldikdə, ölkələrimiz arasında olan gündəlik göstərir ki, xalqlarımızın rifahına xidmət edən bir çox layihələr var. Bu sırada nəqliyyat sahəsini, daşımaları qeyd etmək istəyirəm. Həmçinin müxtəlif istiqamətlərdə nəqliyyat dəhlizləri yaradılmışdır. Son illər ərzində Polşa xüsusən də dəniz limanlarına və dəmir yol xətlərinə malik olan dövlətlərlə öz əlaqələrini inkişaf etdirib. Bu baxımdan bizim ölkəmizdə logistika infrastrukturunun yaradılmasına da diqqət yetirilir. İstərdik ki, bu gün biz, həmçinin beynəlxalq hava limanları vasitəsilə bu sahədəki mübadilələri daha da artıraq. Biz ölkəmizdə bunu yaradırıq. Ölkəmizin coğrafi mövqeyindən istifadə edərək biz yaxşı anlayırıq ki, bununla bağlı bir sıra üstünlüklər var və bu üstünlüklərdən istifadə olunmalıdır. Xüsusən də Şimal ilə Cənub, Qərb ilə Şərq, Avropa ilə Asiya arasında multimodal daşımalar əməliyyatları artmalıdır. Qeyd etmək istəyirəm ki, Polşa, həmçinin Transxəzər daşımalar dəhlizlərində də iştirak etməkdə maraqlıdır. Biz, həmçinin istərdik ki, Avropanın cənub-qərb hissəsində öz əlaqələrimizi daha da genişləndirək.

Azərbaycan bu gün geniş imkanlara malik olan ölkədir və bilirik ki, böyük layihələr həyata keçirməkdədir. Azərbaycan, həmçinin Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmuşdur. Bunun sayəsində Çinə və Hindistana ticarət marşrutları daha da qısalacaqdır. Bu baxımdan istərdik ki, Polşa şirkətləri Azərbaycanda daha geniş şəkildə fəaliyyət göstərsinlər. İstərdik ki, Polşada da Azərbaycan şirkətləri daha geniş şəkildə çalışsınlar və məhsulların ixrac-idxalı ilə məşğul olsunlar.

Qeyd etmək istəyirəm ki, biz son illər ərzində ticarət dövriyyəsində 600 milyon dollara yaxın imkanlar əldə etmişik. Bu da, həmçinin bizim ümumi daxili məhsulumuzun artımından xəbər verir. İstərdik ki, ölkələrimiz arasında ticarət mübadilələri daha da artsın. Təbii ki, bizim ötən il ərzində geniş şəkildə artan ticarət dövriyyəsi buna yaxşı misaldır. Çünki həm Azərbaycan məhsulları Polşada, həm də Polşa məhsulları Azərbaycanda təşviq olunur.

Cənab Prezident, hörmətli iştirakçılar, ümid edirəm ki, bu gün hər iki ölkənin biznes qurumları arasında imzalanacaq sazişlər bizim təmaslarımızı daha da gücləndirəcək və yaxın gələcəkdə ticarət dövriyyəmizi artıracaq. Təbii ki, iqtisadi və ticari münasibətlərimizin genişləndirilməsi baxımından, həmçinin istərdik ki, bizim xarici ticarət üzrə qurumumuz Bakıda daha geniş şəkildə fəaliyyət göstərsin və sizin də müvafiq strukturlarınız bizə qoşulsun.

Cənab Prezident, keçirdiyimiz görüşlərə, aparılmış məhsuldar fikir mübadiləsinə görə Sizə təşəkkürümü bildirirəm. İstərdim ki, ölkələrimiz bu iqtisadi faydalardan yararlansın və bundan sonra da biz Azərbaycanın və Polşanın maraqlarına xidmət edən layihələri birgə həyata keçirək. Mən Sizə işlərinizdə uğurlar arzulayıram.

❖❖❖

Biznes forum işini təqdimatlar və iş adamlarının ikitərəfli görüşləri ilə davam etdirdi.

# Azərbaycan-Polşa münasibətlərində yeni mərhələ

## Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi




Mayın 31-də Bakıda Polşa memarlarının xatirəsinə həsr edilən lövhələrin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, paytaxtın Polşa memarları küçəsində keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda iştirak ediblər.

Polşalı memarların adlarını əbədiləşdirmək məqsədilə Bakının tarixi məhəlləsində yerləşən küçələrdən birinə "Polşa memarları" adı verilib. Buradakı binaların birində polşalı memarlar - İosif Qoslavski, Kazimir Skureviç, İosif Ploşko və Yevgeni Skibinskinin adları həkk olunan xatirə lövhəsi və onların memarı olduqları bir neçə binanın daşdan yonulmuş şəkilləri vurulub. Xatirə lövhələrinin müəllifi Azərbaycanın əməkdar memarı Elbay Qasımzadədir.

Qeyd edək ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakıya əcnəbi sərmayədarlarla yanaşı, tanınmış mühəndislər, inşaat üzrə mütəxəssislər də ayaq açmaqda idi. Şəhərin ərazisi genişlənir, yeni binalar inşa edilir, rayonlar meydana gəlirdi. Bakının memarlıq simasının zənginləşməsində yerli memarlarla bərabər, əcnəbi mütəxəssislər də fəal iştirak edirdilər. Şərq üslubunu heç vaxt itirməyən şəhər, eyni zamanda, bir Avropa şəhərinə çevrilirdi. Bu məsələdə, ümumiyyətlə, o dövrkü Bakının arxitekturasında polşalı memarlar xüsusi rol oynayırdılar. Həmin memarlar Azərbaycan paytaxtının bir sıra möhtəşəm tarixi binalarının müəllifi olublar. Məsələn, Murtuza Muxtarovun sarayı, İsmailiyyə, Bakı Şəhər İcra Hakimiyyətinin binası, Ağabala Quliyevin mülkü və bir çox tarixi binalar polşalı memarların layihələri əsasında inşa olunub.

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

Azərbaycan Respublikasında rəsmi səfərdə olan Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 31-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.



AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

## Azərbaycan-Polşa biznes forumu çərçivəsində mühüm sənədlər imzalanıb

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə mayın 31-də Bakıda keçirilən Azərbaycan-Polşa biznes forumu çərçivəsində əməkdaşlığa dair mühüm sənədlər imzalanıb.

AZƏRTAC xəbər verir ki, yüzdən çox sahibkarın iştirak etdiyi biznes forumda çıxış edən iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədov dövlət başçılarının siyasi iradəsi, müntəzəm görüşlərinin ikitərəfli əməkdaşlığın inkişafında mühüm rol oynadığını deyib. Bildirib ki, Azərbaycan və Polşa prezidentlərinin bugünkü biznes forumda iştirakı işgüzar əlaqələrin inkişafına ən yüksək səviyyədə verilən önəmin göstəricisidir.

Nazir müavini Azərbaycan-Polşa iqtisadi-ticarət əlaqələrinin inkişaf etdiyini, işgüzar dairələrin iştirakı ilə müntəzəm olaraq keçirilən birgə tədbirlərin iş adamları arasında əlaqələri stimullaşdırmaqla yeni biznes təşəbbüslərinin və layihələrin reallaşdırılmasına müsbət töhfə verdiyini qeyd edib.

Azərbaycan-Polşa iqtisadi-ticarət əlaqələrindən danışan R.Məmmədov diqqətə çatdırıb ki, Azərbaycanın Mərkəzi Avropa ölkələri üzrə ticarət nümayəndəliyi ikitərəfli əlaqələrin inkişafına dəstək verir. Ötən ilin dekabrından Varşavada Azərbaycan Ticarət Evi fəaliyyət göstərir: "Azərbaycan və Polşa arasında əlverişli müqavilə-hüquq bazası yaradılıb, investisiyaların təşviqi və qarşılıqlı qorunması, ikiqat vergitutmanın aradan qaldırılması kimi sənədlər də daxil olmaqla 50-yə yaxın ikitərəfli sənəd imzalanıb".

Diqqətə çatdırılıb ki, hazırda Azərbaycanda xidmət, sənaye, ticarət və digər sahələrdə 20-dək Polşa şirkəti fəaliyyət göstərir. Ötən il iki ölkə arasında ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 34 faiz artıb, qarşılıqlı investisiya qoyuluşları həyata keçirilib. Bu gün biznes dairələri arasında imzalanan sənədlər iqtisadi-ticarət sahəsində əməkdaşlığın genişləndirilməsində müsbət rol oynayacaq.

Polşa Respublikası sahibkarlıq və texnologiyalar nazirinin müavini Tadeuş Koşçinski biznes forumda çox sayda iş adamının iştirak etməsinin əlaqələrin inkişafına verilən önəmin göstəricisi olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan qısa müddət ərzində böyük inkişaf yolu keçib və regionun önəmli ölkəsidir.

T.Koşçinski Polşa iş adamlarının iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıqda maraqlı olduğunu qeyd edib, biznes forumun əməkdaşlığın genişləndirilməsinə, yeni əlaqələrin qurulmasına töhfə verəcəyini vurğulayıb.

Sonra AZPROMO-nun rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev və Polşa İnvestisiya və Ticarət Agentliyinin vitse-prezidenti Kşiştof Senger iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi istiqamətlərini diqqətə çatdırıb, iş adamlarını fəal əməkdaşlığa dəvət ediblər.

Tədbirdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə Polşanın Sahibkarlığın İnkişafı Agentliyi, "Azərbaycan İnvestisiya Şirkəti" ASC ilə Polşa İnvestisiya və Ticarət Agentliyi, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Polşa İnvestisiya və Ticarət Agentliyi, Azərbaycanın "Marklab", "Nova Digital Solutions" şirkətləri ilə Polşanın "OEX24.com" şirkəti və Polşa İnvestisiya və Ticarət Agentliyi, Azərbaycanın "AZPARK" şirkəti və Polşanın "Satermus" şirkəti, Azərbaycanın "PSG Kapital" şirkəti ilə Polşa İnvestisiya və Ticarət Agentliyi, Azərbaycanın "4S" şirkəti ilə Polşanın "UNIA" şirkəti arasında qarşılıqlı əməkdaşlığa dair anlaşma memorandumları imzalanıb.

Biznes forumda iş adamları arasında ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın genişləndirilməsi istiqamətində müzakirələr aparılıb.

## "Müasir Azərbaycan Polşa tərəfindən regionda iqtisadi lider ölkə kimi qəbul edilir"

Mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Polşa Respublikasının Prezidenti Andjey Dudanın şərəfinə rəsmi ziyafət verilib.



AZƏRTAC xəbər verir ki, rəsmi ziyafətdə çıxış edən Prezident İlham Əliyev Polşa Prezidentini və onun rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycanda bir daha salamladı. "Bu, Sizin ölkəmizə ilk rəsmi səfərinizdir", - deyən dövlət başçısı özünün Polşaya rəsmi səfərlərini xoş təəssüratlarla xatırladığını vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasında mövcud əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu qeyd edərək dedi:

- Bu gün biz ikitərəfli əlaqələrimizi nəzərdən keçirdik. Ölkələrimiz arasında siyasi, iqtisadi, enerji, nəqliyyat, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. İnanıram ki, səfəriniz zamanı apardığımız danışıqlar, əldə olunan razılaşmalar və imzalanan sənədlər əlaqələrimizin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Xalqlarımız arasında əlaqələrin tarixi köklərinin olduğunu vurğulayan Prezident İlham Əliyev vaxtilə Azərbaycanda məskunlaşmış polşalıların ölkəmizin ictimai-siyasi və iqtisadi həyatında fəal rol oynadıqlarını bildirdi. Tarixi münasibətlərimizin müasir dövrdə də əməkdaşlığımızın inkişafı üçün möhkəm təməl yaratdığını deyən dövlət başçısı bir çox sahələrdə uğurlu qarşılıqlı əlaqələrin həyata keçirildiyini vurğulayaraq bildirdi:

- Ölkələrimiz arasında Şərq-Qərb və Şimal-Cənub dəhlizləri çərçivəsində nəqliyyat sahəsində əməkdaşlıq üçün geniş imkanlar var. Azərbaycan regionda təhlükəsizliyin, inkişafın və əməkdaşlığın tərəfdarıdır.

Prezident İlham Əliyev bildirdi ki, regionun ən ağrılı problemi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, ədalətli həllinin tərəfdarıdır. Prezident İlham Əliyev Polşa tərəfinə münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini dəstəklədiyinə görə minnətdarlığını bildirdi.

Sonra Polşa Prezidenti Andjey Duda çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, hörmətli xanımlar və cənablar, əziz dostlar.

Dəvət üçün təşəkkür edirəm. Bugünkü görüşümüz ölkələrimiz və xalqlarımız arasındakı yaxşı münasibətlərin ən bariz təsdiqidir. Baxmayaraq ki, Bakı və Varşavanı 3000 kilometrdən çox məsafə ayırır, amma paytaxtınız hər bir polşalı üçün yaxın bir şəhərdir.

Polşalı Stefan Jeromskinin "Erkən bahar" əsərinin xalqlarımızı daha da yaxınlaşdırdığını vurğulayan Polşa Prezidenti Andjey Duda Polşa memarlarının xatirəsinə lövhə açılması, xüsusi poçt markasının buraxılması və Bakının mərkəzi küçələrindən birinin "Polşa memarları" adlandırılmasını onların xatirəsinin yüksək səviyyədə anılması kimi dəyərləndirdi və buna görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Əlaqələrimizin əsasında hər iki xalqı birləşdirən gözəl bir keçmiş var. İndiki zamana gəlincə isə, deyə bilərəm ki, əlaqələrin gələcəyinə əminəm. Müasir Azərbaycan Polşa tərəfindən regionda iqtisadi lider və Asiya ilə Avropanı birləşdirən körpünün qurulmasında əsas rol oynayan ölkə kimi qəbul edilir.

Avropa İttifaqı ilə əməkdaşlığa toxunan Polşa Prezidenti qeyd etdi ki, "Şərq Tərəfdaşlığı" proqramı Avropa İttifaqı ilə əlaqələrin daha da möhkəmləndirilməsi üçün yaxşı platformadır. Andjey Duda bir daha əminliklə bəyan etdi ki, Polşa hər zaman ərazi bütövlüyü beynəlxalq hüquqla təmin olunan suveren Azərbaycanın tərəfində olacaq.

## Şəhidlərin xatirəsinə ehtiram



**Mayın 31-də Polşa Respublikasının Prezidenti Andjey Duda Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, burada ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident Andjey Duda Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının məzarlarını ziyarət etdi.

Ali qonaq "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Polşanın və Azərbaycanın Dövlət himnləri səsləndi.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtda görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

## Prezident Andjey Duda Bakıda Müqəddəs Məryəm Katolik Kilsəsini ziyarət edib

Polşa Respublikasının Prezidenti Andjey Duda mayın 31-də Azərbaycana rəsmi səfəri çərçivəsində Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsini ziyarət edib.



AZƏRTAC xəbər verir ki, Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete kilsənin tarixi, burada katoliklərin ibadət etməsi üçün yaradılan şərait barədə Polşa Prezidentinə məlumat verdi.

Bildirildi ki, bu kilsənin yerləşdiyi ərazi 2004-cü ildə Azərbaycana gələn Vatikanın nümayəndə heyətinin başçısı kardinal Toran tərəfindən Roma-katolik kilsəsinin ənənəsinə uyğun olaraq təqdis edilib. Eyni vaxtda 250-300 nəfərin ibadət edə biləcəyi salonu olan bu kilsənin rəsmi açılışı 2008-ci ilin martında olub. Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Vatikanın dövlət katibi kardinal Tarçizio Bertone açılış mərasimində iştirak ediblər.

Vladimir Fekete 2008-ci ildə Heydər Əliyev Fondu tərəfindən Müqəddəs Ruhun həvarilərə nazil olmasını təsvir edən klassik vitraj və Müqəddəs Rozari dualarındakı sirlərdən bəhs edən keramik pannonun kilsəyə hədiyyə olunması barədə Polşanın dövlət başçısına məlumat verdi.

Sonra Polşa Prezidenti Azərbaycan-Vatikan əlaqələrini, həmçinin Roma Papası II İohan Pavelin Azərbaycana səfərini əks etdirən fotoguşəyə baxdı.

Diqqətə çatdırıldı ki, Roma papaları II İohan Pavel və Fransisk müvafiq olaraq 2002-ci və 2016-cı illərdə Bakıya səfər ediblər.

## Səfər başa çatdı



Polşa Respublikasının Prezidenti Andjey Dudanın Azərbaycan Respublikasına rəsmi səfəri mayın 31-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Polşa Prezidenti Andjey Dudanı hava limanında Azərbaycanın Baş Nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Nadir Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Pakistan hökuməti və xalqı adından, şəxsən öz adımdan ən səmimi təbriklərimizi çatdırıram. Qardaş Azərbaycan xalqı ilə birlikdə Pakistan xalqı da bu əlamətdar bayramı qeyd edir.

Ölkələrimiz arasında daim inkişaf edən əməkdaşlığın səviyyəsini böyük məmnunluq hissi ilə qeyd edirəm.

Cammu və Kəşmir, eləcə də Dağlıq Qarabağ münaqişələrində ölkələrimizin bir-birinə verdiyi dəstək dövlətlərimizi birləşdirən güclü qardaşlıq münasibətlərinin təcəssümüdür.

Qardaş xalqlarımızın mənafeləri naminə əlaqələrimizin daha da möhkəmlənməsi istiqamətində zati-alinizlə sıx əməkdaşlıq etmək əzmindəyəm.

Bu fürsətdən istifadə edərək zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

Zati-aliləri, Sizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Arif ALVİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına səmimi təbriklərimi, ən xoş arzularımı, sülh və firavanlıq diləklərimi qəbul edin.

Bu əlamətdar tarix Sizin ölkənizin qazandığı hərtərəfli uğurları, Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun inamla yüksəlməsini qeyd etmək üçün xoş bir fürsətdir.

Əminəm ki, dövlətlərarası konstruktiv dialoqun inkişafı və birgə layihələrin ardıcıl reallaşdırılması ikitərəfli əlaqələrimizi zənginləşdirəcək və qarşılıqlı faydalı Moldova-Azərbaycan əməkdaşlığının genişləndirilməsi üçün yeni perspektivlər açacaq.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycan xalqının firavanlığı naminə yeni nailiyyətlər diləyir, zati-alinizə böyük ehtiramıma əmin olmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***İqor DODON,***
***Moldova Respublikasının Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizi Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan təbrik edirəm.

Azərbaycan xalqının rifahı naminə işinizdə Sizə uğurlar, möhkəm cansağlığı və firavanlıq arzu edirəm.

Fürsətdən istifadə edib, Rusiya Xarici Kəşfiyyat Xidmətinin və Azərbaycanın xüsusi xidmətlərinin dövlətlərimizin təhlükəsizliyinin təmin edilməsinə və milli mənafelərinin müdafiəsinə yönəlmiş qarşılıqlı fəaliyyətinə göstərdiyiniz diqqətə və dəstəyə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm.

*Hörmətlə,*

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

# Heydər Əliyev Mərkəzində I Autizm Mədəniyyət Festivalı






Mayın 31-də Azərbaycanda ilk dəfə autizm sindromlu uşaqların I Autizm Mədəniyyət Festivalı təşkil olunub. Tədbir "Uşaqların Xoşbəxt Gələcəyi" İctimai Birliyi, "Birgə və Sağlam" İctimai Birliyi və "Ümid var" xeyriyyə könüllülərinin təşkilatçılığı, Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Festivalda autizmli uşaqlar incəsənətin müxtəlif sahələrində istedadlarını nümayiş etdiriblər, pianoda və xor şəklində mahnılar ifa edərək "Biz də cəmiyyətin ayrılmaz parçasıyıq" mesajını verməyə çalışıblar.

Festivalda iştirak edən əməkdar artist Tünzalə Ağayeva və başqaları autizmli uşaqların yanında olduqlarını nümayiş etdiriblər.

Tədbirdə çıxış edən "Birgə və Sağlam" İctimai Birliyinin sədri Aytən Eynalova uşaqlarda autizm spektr pozuntuları və ölkəmizdə bu istiqamətdə görülən işlər haqqında məlumat verib.

Festivalda autizm sindromlu uşaqlar podiumda model kimi bacarıqlarını da göstəriblər. Onlar Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın əsəri köçürülmüş parçadan hazırlanan kolleksiyanı təqdim ediblər. Modelyer-dizayner Zemfira Musayevanın hazırladığı kolleksiyanı podiumda "Birgə və Sağlam" İctimai Birliyinin reabilitasiya mərkəzinin 10 uşağı nümayiş etdirib. Ətrafdakılardan anlayış, sevgi, qayğı və mərhəmət gözləyən uşaqların cəmiyyətə inteqrasiyası, sosiallaşması baxımından moda nümayişi mühüm əhəmiyyət kəsb edib.




Festivala Türkiyədən də istedadlı autizmli uşaqlar qatılıblar. İzmir Autizm Orkestri - İZOT xor qrupu tədbirdə maraqlı proqramla çıxış edib.

Ətrafındakı insanlardan anlayış, sevgi, qayğı gözləyən autizm sindromlu uşaqların özlərini bizlərdən biri hiss etmələri üçün bəzi nömrələrdə onların normal inkişaf edən həmyaşıdları ilə birlikdə çıxış etmələrinə şərait yaradılıb.

Tədbir çərçivəsində, həmçinin Dövlət Pantomim Teatrının aktyorlarının və cəmiyyətdə tanınan bir sıra peşə sahiblərinin iştirakı ilə "Autizm fərqli və bizdən biri" mövzusunda fləşmob təqdim olunub.

Autizmli uşaqların sosiallaşması, cəmiyyətə inteqrasiya olunması baxımından mühüm əhəmiyyət kəsb edən festival həm də maarifləndirici xarakter daşıyıb. Tədbir ərzində qonaqların "Autizm nədir?" sualına cavab tapmaları üçün qısametrajlı filmlər, sosial çarx, klip göstərilib, bukletlər paylanılıb.

# Vətəndaşların qəbulu keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən mayın 31-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev İsmayıllı rayonunda yerləşən Heydər Əliyev Mərkəzində İsmayıllı və Qəbələ rayonlarından olan vətəndaşları qəbul edib.

Həmin gün ekologiya və təbii sərvətlər nazirinin müavinləri Firdovsi Əliyev Oğuz, Rauf Hacıyev isə Şəki şəhərindən olan vətəndaşlarla görüşüb.

Qəbullar zamanı meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib.

Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını ifadə ediblər.

* * *

Energetika naziri Pərviz Şahbazov mayın 31-də Lənkəranda Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Lənkəran filialının inzibati binasında vətəndaşları qəbul edib.

Energetika Nazirliyindən bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda Lənkəran, Astara və digər rayonlardan olan vətəndaşlar iştirak ediblər. Vətəndaşların müraciətləri elektrik enerjisinə görə yaranan borcun silinməsi, elektrik enerjisi ilə bağlı texniki şərtin verilməsi, elektrik enerjisinin keyfiyyəti, elektrik enerjisi təchizatında fasilələr, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, qazlaşma, işlə təminat və digər məsələlərlə bağlı olub.

Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşlar diqqətlə dinlənilib, müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib. Qəbulda ümumilikdə 30-dək vətəndaşın müraciətinə baxılıb.

Qəbula gələnlər bölgələrdə vətəndaşların qəbulunun təşkilinə, göstərilən hərtərəfli diqqət və qayğıya, yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Lənkəranda təşkil olunmuş qəbullar barədə vətəndaşların ətraflı məlumatlandırılması üçün KİV-də, Energetika Nazirliyinin rəsmi internet saytında (www.minenergy.gov.az) və feysbuk səhifəsində elanlar verilib, nazirliyin saytında vətəndaşların qəbulu üçün elektron müraciətlərin onlayn qeydiyyata alınması məqsədilə imkanlar yaradılıb.

***AZƏRTAC***

# Baş Nazir Novruz Məmmədov Aşqabadda MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib

## Türkmənistan Prezidenti Azərbaycanın Baş Nazirini qəbul edib



Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti MDB Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Türkmənistanın paytaxtı Aşqabadda səfərdə olub.

AZƏRTAC xəbər verir ki, mayın 30-da Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Azərbaycanın Baş Naziri Novruz Məmmədovu qəbul edib.




Görüşdə Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin noyabrında Türkmənistana rəsmi səfərinin, səfər çərçivəsində aparılan danışıqların və imzalanan sənədlərin ölkələrimiz arasında münasibətlərin genişləndirilməsi baxımından önəmli rol oynadığı qeyd edilib.

Söhbət zamanı Azərbaycan-Türkmənistan ikitərəfli münasibətlərinin müxtəlif istiqamətlərində, o cümlədən ticarət, iqtisadiyyat, energetika sahələrində əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb.

Azərbaycanın Baş Naziri Novruz Məmmədov mayın 31-də Aşqabadda MDB Hökumət Başçıları Şurasının iclasında iştirak edib.

# Görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın iclası olub

Mayın 31-də Nazirlər Kabinetində görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üzrə Komissiyanın ilk iclası olub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb. Baş nazirin müavini bildirib ki, görkəmli şəxsiyyətlərin, xalq, vətən, dövlət qarşısında xidmətləri olan şəxslərin və şəhidlərin xatirəsinin əbədiləşdirilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkə tarixində mühüm rol oynayan görkəmli ziyalılarımız, vətənimizin müstəqilliyi uğrunda şəhid olanlar, şücaət göstərib Milli Qəhrəman adı qazananlar və onların ailə üzvləri daim dövlətin diqqət və qayğısı ilə əhatə olunurlar. Xalq, vətən, dövlət qarşısında xidmətləri olan həmin şəxslərin bir çoxlarının adları müxtəlif qurumlara, təhsil, mədəniyyət ocaqlarına, küçələrə və s. verilir. Sözügedən məsələ ilə bağlı müvafiq icra orqanlarından Nazirlər Kabinetinə yeni təkliflər daxil olur. Bu təkliflər Nazirlər Kabineti Aparatının aidiyyəti şöbələri tərəfindən araşdırılır və nəticəsi barədə arayışla birlikdə baxılması üçün komissiyaya təqdim edilir.

Daha sonra komissiyanın iclasında təkliflərlə bağlı müzakirələr aparılıb. Komissiya üzvlərinin rəyləri nəzərə alınaraq yekun qərar qəbul edilməsi üçün zəruri tövsiyələr verilib. Xatırladaq ki, komissiya 2019-cu il aprelin 1-i Nazirlər Kabinetinin müvafiq qərarı ilə yaradılıb.

# ADA Universitetində "Məzun günü 2019"






Mayın 31-də ADA Universitetində "Məzun günü 2019" keçirilib.

AZƏRTAC xəbər verir ki, bu il ADA Universitetində 7 bakalavr və 5 magistr ixtisası üzrə 406 nəfər tələbə məzun olub. Məzunlar arasında bu il Azərbaycandan başqa, 11 müxtəlif ölkə, o cümlədən Əfqanıstan, Baham adaları, Gürcüstan, Qazaxıstan, Maldiv Respublikası, Meksika, Moldova, Monteneqro, Nigeriya, Rusiya Federasiyası və Türkiyə təmsil edilib.

Tədbir universitetdə təhsil alan, təmsil etdikləri dövlətlərin bayraqlarını gətirən əcnəbi tələbələrin marşı ilə başlanıb. Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

### 46 ölkəni təmsil edən beynəlmiləl mühit

Mərasimdə məzunlar adından Nərmin Babayeva (beynəlxalq münasibətlər ixtisası, bakalavr) və Tərlan Abbasova (təhsil üzrə menecment ixtisası, magistr) çıxış edərək bu əlamətdar günün sevincini tədbir iştirakçıları ilə bölüşüblər.

ADA Universitetində tələbə həyatını əks etdirən videokadrlar qonaqlar tərəfindən alqışlarla qarşılanıb. Qeyd edək ki, universitet tələbə, məzun, müəllim və işçi heyəti 46 müxtəlif ölkəni təmsil edən beynəlmiləl mühiti, müasir tələbə şəhərciyi, fəal və maraqlı tələbə həyatı, yüksək akademik göstəricilərlə oxuyan tələbələrə təhsil haqqında güzəştlər, dünyanın 70 aparıcı universitetində təhsil mübadiləsi imkanı, məzunlar arasında 89 faiz məşğulluq göstəricisi ilə fərqlənir.

ADA Universitetində bakalavr pilləsi üzrə kompüter mühəndisliyi, kompüter elmləri, informasiya texnologiyaları və sistem mühəndisliyi (bu ixtisas üzrə buraxılan sinfin hazırkı məşğulluq göstəricisi 100 faizdir), biznesin idarə olunması, iqtisadiyyat, dövlət və ictimai münasibətlər, beynəlxalq münasibətlər tədris edilir. Magistr pilləsi üzrə diplomatiya və beynəlxalq münasibətlər, dövlət idarəetməsi, biznesin idarə edilməsi, MBA, Exectuive MBA, təhsil üzrə menecment tədris edilir.

### Real mühitə tam hazır olan məzunlar

Tədbirdə ADA Universitetinin tədris işləri üzrə prorektoru Vəfa Kazdal bu ali təhsil müəssisəsində tədrisin real dünya təcrübəsinə əsaslandığını bildirib. Qeyd edib ki, ADA Universitetinin tələbələri tədris ənənələri, burada aldıqları təhsil sayəsində real dünyaya tam hazırlıqlı olurlar.

Mərasimdə məzun gününün xüsusi qonağı kimi Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar çıxış edərək ölkəmizdə elmin və təhsilin inkişafına göstərilən böyük diqqət və qayğıdan danışıb. "Xalqımızın gələcəyi sizdən - həm yerli tələbələrdən, həm də xaricdən gələrək burada təhsil alan tələbələrdən asılıdır. Biz istəyirik ki, əcnəbi tələbələr öz ölkələrində Azərbaycanın necə olduğunu, Azərbaycanın haqqını təsdiq etsinlər", - deyən xalq yazıçısı Anar xalqımızın bundan sonra da xoşbəxt yaşayacağına əminliyini bildirib.

Tədbirdə xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev ali təhsil müəssisəsinin builki nailiyyətləri və gələcək planları barədə danışıb. "Tələbələrin aldığı diplom onların yeni həyatına vəsiqədir", - deyən rektor onların gələcək vəzifələrini sevgi ilə, vicdanla və ən əsası, məsuliyyətlə yerinə yetirəcəyinə ümidvar olduğunu deyib.

ADA Universitetinin 13 il əvvəl Azərbaycan Diplomatik Akademiyası kimi yaradıldığını xatırladan rektor Hafiz Paşayev qeyd edib ki, o zaman, ölkənin xarici siyasət sahəsində tələblərin artması savadlı, bacarıqlı kadrlara ehtiyac yaratmışdı.

"Fəaliyyətimizə başlayanda biz, necə diplomat yetişdirmək istədiyimizi tarixi nümunələrdən görürdük. Bu il 100 illiyini qeyd etdiyimiz Azərbaycan diplomatiyasının banilərinin 1919-cu ildə Paris Sülh Konfransında Cümhuriyyəti dünyaya tanıtmaqda göstərdikləri fədakarlıq xalqımız üçün məsuliyyətli yanaşmanın parlaq nümunəsidir. Daha müasir tariximizə nəzər salsaq, bugünkü müstəqil Azərbaycanın memarı Heydər Əliyev çətin dönəmdə xalqını böhrandan xilas etmək üçün fövqəl iradə və heyrətamiz məsuliyyət göstərmiş və gələcək nəsillərin fəxr edəcəyi bir dövlət qurmuşdur.

Şübhəsiz ki, hər hansı vəzifədə ölkəsini mükəmməl şəkildə təmsiletmə məsuliyyəti bu gün 12 müxtəlif ixtisas üzrə məzun olan tələbələrimizin də üzərinə düşür", - deyə Hafiz Paşayev bildirib.

# Milli Məclisin yaz sessiyası başa çatdı

## Sonuncu iclasda 2018-ci ilin dövlət büdcəsinin icrası müzakirə olundu

*Əvvəli 1-ci səh.*






Dövlət büdcəsinin gəlirlərinin 32,9 faizi Vergilər Nazirliyinin, 15,3 faizi Dövlət Gömrük Komitəsinin xətti ilə daxilolmaların, 48,7 faizi Dövlət Neft Fondundan transfertlərin, 3,1 faizi digər gəlirlərin payına düşür. Dövlət büdcəsi gəlirlərinin ÜDM-də xüsusi çəkisi 2018-ci ildə 28,2 faiz təşkil etmişdir ki, bu da 2017-ci illə müqayisədə 4,7 faiz çoxdur.

Xərclərə gəldikdə, 2018-ci ildə ölkənin uzunmüddətli sosial-iqtisadi inkişafının prioritet istiqamətləri, o cümlədən, təhsil, səhiyyə, sosial, mədəniyyət, idman və infrastruktur layihələrinin reallaşdırılması, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsi, dövlətin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin gücləndirilməsi, kənd təsərrüfatının stimullaşdırılması, dövlət borcu və beynəlxalq təşkilatlara üzvlük haqlarının ödənilməsi və digər zəruri dövlət tədbirlərinin icrası üçün maliyyə təminatının yaradılması diqqətdə saxlanılıb.

Ötən il dövlət büdcəsinin xərcləri 23 milyard 100 milyon manat proqnoza qarşı 22 milyard 731,6 milyon manat və ya 98,4 faiz icra edilib. Bu da 2017-ci ilə nisbətən 29,2 faiz çoxdur. 2018-ci il üçün dövlət büdcəsi xərclərinin ÜDM-də xüsusi çəkisi 28,5 faiz təşkil etmişdir. Bu, 2017-ci ilə nisbətən 3,4 faiz çoxdur. Strukturuna görə 2018-ci il dövlət büdcəsi xərclərinin 50,8 faizi cari xərclərə (2017-ci illə müqayisədə 5,9 faiz çox), 39,4 faizi əsaslı xərclərə (2017-ci illə müqayisədə 1,7 dəfə çox), 9,8 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə yönəldilib.

Ötən il büdcə xərclərinin 31,7 faizi sosialyönümlü xərclərin maliyyələşdirilməsinə yönəldilib ki, bu da 2017-ci ildə olduğundan 7,6 faiz çoxdur.

2018-ci il icmal büdcənin gəlirləri 28 milyard 124,6 milyon manat proqnoza qarşı icra 30 milyard 924,7 milyon manat və 110 faiz (2017-ci ilə nisbətən 28,4 faiz çox) olub. Xərcləri isə 26 milyard 575,2 milyon manat proqnoza qarşı icra 26 milyard 456,9 milyon manat və 99,6 faiz (2017-ci ilə nisbətən 5,1 faiz çox) təşkil edib.

Sonra Hesablama Palatasının sədri Vüqar Gülməmmədov Palatanın 2018-ci il dövlət büdcəsinin icrası ilə bağlı rəyini diqqətə çatdırdı. Qeyd etdi ki, respublikamızın ictimai-siyasi həyatında əlamətdar hadisələrlə zəngin bir il kimi yadda qalan 2018-ci il Azərbaycan Respublikasının iqtisadiyyatı üçün də uğurlu olmuşdur. Belə ki, son illər qlobal müstəvidə iqtisadi amillərin dəyişkənliyi, bu amillərin siyasi meyillər qarşısında həssaslığı makroiqtisadi mühitin davranışından çox sıx asılı olan büdcə layihələndirilməsi və onun icrasında, ümumilikdə dövlət maliyyəsinin idarəedilməsində bir sıra dövlətlərə problemlər yaratmışdır. Ölkəmizdə isə 2018-ci ilin dövlət büdcəsi yüksək artım tempi və icra səviyyəsi ilə xarakterizə olunur.

Vüqar Gülməmmədovun sözlərinə görə, ötən il münbit makroiqtisadi meyillər dövlət büdcəsinin müvəffəqiyyətli icrasına da real şərait formalaşdırmışdır. Belə ki, dövlət büdcəsinin gəlir və xərclərinin icrası son 7 ildə ən yüksək artım tempini nümayiş etdirmiş, eyni zamanda, icra səviyyəsi də son illərin meylini davam etdirməklə yüksək olmuşdur.

Ötən ilin dövlət büdcəsinin ayrı-ayrı göstəriciləri barədə ətraflı danışan Vüqar Gülməmmədov rəyin Hesablama Palatasının kollegiyasında müzakirə edilərək təsdiq olunduğunu, qanunvericiliyin tələblərinə uyğun müddətlərdə təqdim edildiyini bildirərək müzakirələr zamanı rəydə əks etdirilmiş mövqe və tövsiyələrin nəzərə alınmasını xahiş etdi.

Müzakirələr zamanı Milli Məclis Sədrinin müavini Bahar Muradova, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, deputatlardan Fərəc Quliyev, Elman Nəsirov, Əli Məsimli, Fazil Mustafa, Vahid Əhmədov, Tahir Mirkişili, Qüdrət Həsənquliyev, Azay Quliyev, Qənirə Paşayeva, Rafiq Məmmədhəsənov, Elmira Axundova, Aydın Hüseynov, Aydın Mirzəzadə layihə ilə bağlı fikirlərini bildirdilər, təkliflərlə çıxış etdilər.

Çıxışlarda Azərbaycan Ordusunun hərbi qulluqçusu Aqil Omarovun düşmən tərəfindən açılan snayper atəşi nəticəsində şəhid olmasına da münasibət bildirən deputatlar bu hadisəni sərt pislədilər, parlamet səviyyəsində etiraz olunmasını təklif etdilər. Deputat Aydın Mirzəzadənin sözlərinə görə, belə bir təsəvvür yaranır ki, ya Ermənistanın baş naziri Paşinyan ikiüzlülük edir, diplomatik danışıqlar aparır, gizlində isə silahlı qüvvələrə Azərbaycana qarşı belə çirkin addımlar atmağa tapşırıq verir, ya da o, silahlı qüvvələrə nəzarət etmir. Deputat qeyd etdi ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin regionda səfərdə olduğu bir vaxtda belə bir addım Ermənistanın qeyri-konstruktivliyindən xəbər verir.

Məsələyə münasibət bildirən Milli Məclisin Sədri Oqtay Əsədov dedi ki, bu barədə beynəlxalq təşkilatlara məlumat çatdırılıb. Azərbaycan Xarici İşlər Nazirliyi bu istiqamətdə işlər aparır. Azərbaycan Milli Məclisinin beynəlxalq təşkilatlardakı nümayəndələrinə tapşırılıb ki, bu məsələni yüksək səviyyədə qaldırsınlar.

Müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Spiker Oqtay Əsədov növbədənkənar sessiyanın keçiriləcəyini bildirərək Milli Məclisin 2019-cu il yaz sessiyasının başa çatdığını elan etdi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

# Azərbaycanın zəfəri, cığalın uğursuzluğu

## UEFA Avroliqasının finalına evsahibliyi edən Bakı hər cür təqdirə layiqdir

*Əvvəli 1-ci səh.*



UEFA turnirlərinin - Çempionlar Liqasının və Avroliqanın final matçları hər il Avropanın müxtəlif ölkələrində keçirilir.

İndiyədək hələ heç kim final ərəfəsində matçın ev sahibinin kimliyinə etiraz etməmişdi. Lakin bu dəfə Bakıya münasibət fərqli oldu. Hərçənd ümid etmək olardı ki, istər futbolçular, istərsə də azarkeşlər bir çox dünya və qitə əhəmiyyətli idman tədbirlərini, xüsusilə ilk Avropa Oyunlarını yüksək səviyyədə keçirmiş Azərbaycan paytaxtına səfəri səbirsizliklə gözləyəcək, möhtəşəm futbol matçının şahidi olacaqlar. Amma necə deyərlər, sən saydığını say, gör "Arsenal"ın başbilənləri nə sayır.

Avroliqanın Bakı finalı "Arsenal" üçün taleyüklü əhəmiyyət daşıyırdı. "Çelsi"dən fərqli olaraq, "topçular" milli çempionatın başa çatmış 2018/2019-cu illər mövsümündə ilk dörd yerdən birini tuta bilmədiklərinə görə UEFA Çempionlar Liqasından kənarda qalmış, nəticədə on milyonlarla avrodan məhrum olmuşdular. Amma onların Çempionlar Liqasının qrup mərhələsinə qatılmaq üçün hələ bir fürsəti qalmışdı: "Çelsi"yə qalib gəlib Avroliqanın kubokunu qazanmaq və bununla çoxgəlirli turnirə vəsiqə əldə etmək!

Gözləmək olardı ki, "Arsenal"ın rəhbərliyi bütün səylərini Avroliqanın Bakı finalına yönəldəcək, futbolçuların motivasiyasını yüksəltmək üçün var qüvvəsi ilə çalışacaq. Təəssüf ki, "topçular" başqa yol seçdilər. "Arsenal" həlledici matç barədə düşünmək əvəzinə azarkeşlərin Bakıya gəlişinin çətinliyindən söz açmağa başladı. "Arsenal"ın rəhbərliyi iddia edirdi ki, azarkeşlərdən nəqliyyat problemləri ilə əlaqədar çoxlu şikayət daxil olub və klubun rəhbərliyi onların qayğılarını bölüşür. Klubun başbilənləri final görüşlərinin keçirildiyi yerlərin seçilməsi meyarlarını öyrənmək istəyirdilər. "Topçular"ın başbilənləri UEFA-dan tələb edirdilər ki, gələcəkdə final yerlərinin müəyyən edilməsində azarkeşlərin tələbləri nəzərə alınsın.

"Arsenal" kimi köklü klubun belə bir hərəkəti cığallıqdan başqa bir şey kimi dəyərləndirilə bilməz. Azarkeşlər UEFA-ya qarşı tələb irəli sürə bilməzlər: onlar yalnız final matçını harada olursa-olsun yerindəcə izləyə, ya da televizorun qabağına keçə bilərlər. Final yarışlarını seçmək üçün meyarları bilməmək "Asenal" rəhbərliyinin şəxsi problemidir - sözügedən meyarlar UEFA-nın müvafiq sənədlərində əksini tapmışdır. Ona görə də UEFA-nın prezidenti Aleksander Çeferin bu cür sərsəm iddiaları anlaya bilməyib, neyləsin? Avropa futbol təşkilatının başçısı Bakını "Arsenal"ın rəhbərləri kimi düşünənlərdən fərqli gördü: onun dediyi kimi, Azərbaycan paytaxtında final görüşünü keçirmək üçün hər şey ideal şəkildə hazırlanmışdı!

Yəqin ki, "Arsenal"ın rəhbərliyi uydurduğu problemlərin əsassız olduğunu anladığından başqa bir qarayaxma kampaniyası həyata keçirmək istəmişdi: guya klubun futbolçusu Henrix Mxitaryan təhlükəsizlik ucbatından Bakıya gələ bilmir. Hərçənd Azərbaycan tərəfi erməni əsilli futbolçunun təhlükəsizliyinə təkrar-təkrar zəmanət vermişdi. Həm də, görəsən, Mxitaryan nə matahdır ki, ona xüsusi diqqət yetirilirdi? İngiltərə Premyer-Liqasının 2018/2019-cu illər mövsümünün nəticələri sübut edir ki, hücuma yönəlik erməni yarımmüdafiəçisi klubun nəinki ölkə çempionu olması, turnir cədvəlində heç olmasa dördüncü yeri tutması naminə heç nə etməmişdir. Mxitaryan 38 matçın 25-də meydana çıxıb cəmi 6 qol vurmuşdur. O, digər futbolçularla birlikdə tənəzzül dövrü keçirən "Arsenal"ın top-klub statusunu itirməsinə nəzərəçarpan "töhfə" vermişdir.

Beləcə üç ildir Çempionlar Liqasına həsrət qalmış "Arsenal"ın Avroliqaya qatılmaqdan başqa çarəsi qalmır. Qoy UEFA-nın əhəmiyyətcə ikinci turnirində oynasın, həm də uğursuzluğunu cəfəng iddialarla ört-basdır etməsin, hər hansı hoqqabazlıqdan kənarda qalsın, özünü yalnız futbola kökləsin. Bəlkə onda "topçular"ın "mərmi"si hədəfi vurar.

İndi "Arsenal"ın həm azarkeşləri, həm də Bakıya "ağır səyahət"dən şikayətlənən azarkeşləri susurlar. Bakıda Avroliqanın finalında darmadağın olub ağır yara almış klubun əməlli-başlı "müalicə"yə ehtiyacı var. Öz işləridir, özləri bilərlər.

"Arsenal"ın Bakı "sərgüzəşt"i başqa klublar üçün dərs olmalıdır. Futbol siyasət deyil, idmandır. İdmanı siyasətə qatanları yaxşı heç nə gözləmir. Onlar qazanmır, yalnız itirirlər.

Bakıda yel qayadan heç nə apara bilmədi. Paytaxtımız möhtəşəm matçdan ev sahibi kimi zəfərlə çıxdı, cığal isə məğlub olub qovrula-qovrula qaldı.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Məhsul istehsalının 80 faizi özəl sektorun payına düşür

## Bu, ölkədə sahibkarlığın inkişafının göstəricisidir



*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, hazırda ölkə üzrə istehsal olunan məhsulların 80 faizdən çoxu özəl sektorun payına düşür. Bu isə həm də ölkədə sahibkarlıq sinfinin formalaşması deməkdir.

Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə dövlət qayğısının artırılması məqsədilə Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri hesabına bugünədək ölkə üzrə layihələrinin ümumi dəyəri 5 milyard manat olan 35600-dən çox sahibkara 2,3 milyard manat güzəştli kreditlər verilib. Həmin kreditlər hesabına 165 mindən çox yeni iş yeri açılıb. Onu da qeyd edək ki, güzəştli kreditlərin 1 milyard manatı büdcə vəsaiti olmuşsa, 1,3 milyard manatı geri qaytarılan vəsaitlər hesabına təmin edilmişdir. Güzəştli kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib. Verilmiş kreditlərin 75 faizi regionların, 25 faizi Bakı və paytaxt qəsəbələrinin payına düşüb.

Regionlarda sahibkarlıq fəaliyyətinə yeni başlayanların dəstəklənməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən Xaçmazda və Yevlaxdakı regional inkişaf mərkəzlərində biznes inkubatorlar yaradılıb. Lazımi şərait və avadanlıqlarla, eləcə də tədris materialları ilə təmin olunmuş biznes inkubatorlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə biznesin sirləri öyrədilir. Hazırda mövcud biznes inkubatorların inkişaf etdirilməsi və yenilərinin yaradılması imkanları araşdırılır.

Sahibkarlığın inkişafı daha çox məhsul istehsalı deməkdir və belə olduqda daxili tələbat ödənildikdən sonra sahibkar üçün məhsul ixracının təmin edilməsi zərurəti yaranır. Dövlət bu işdə də sahibkarlardan dəstəyini əsirgəmir. Hazırda ixracın stimullaşdırılması istiqamətində işlər davam etdirilir. Bu məqsədlə 24 ixrac missiyası təşkil olunub, beynəlxalq sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendləri ilə Azərbaycan ixracatçılarının iştirakı təmin edilib, xarici ölkələrdə ticarət evlərinin yaradılması istiqamətində müvafiq tədbirlər görülüb. Bunun sayəsində Belarusda, Ukraynada, Latviyada, Çində və Polşada ticarət evləri, Rusiya Federasiyasının Həştərxan vilayətində Azərbaycan İş Mərkəzi yaradılıb, Çin Xalq Respublikasının Urumçi və Şanxay şəhərlərində Azərbaycan şərab evləri açılıb, Rusiya, Çin, Birləşmiş Ərəb Əmirlikləri və Polşada ticarət nümayəndələri fəaliyyətə başlayıb, müxtəlif qeyri-neft məhsulları ixracatçılarına ixrac təşviqi ödənilib ki, bu da ölkədə qeyri-neft ixracının artımına təkan verib.

Bunlardan əlavə, sahibkarlığın inkişafı məqsədilə həyata keçirilən islahatların tərkib hissəsi kimi lisenziyalar və icazələr sisteminin tənzimlənməsi və inzibati prosedurların sadələşdirilməsi istiqamətində aparılan kompleks tədbirlər nəticəsində lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 59-dan 37-yə, icazələrin sayı 330-dan 86-ya endirilib, yeni verilən və qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilib, lisenziyaların verilməsinə görə dövlət rüsumunun məbləğləri təxminən 2, regionlar üzrə 4 dəfə azaldılıb, lisenziyaların verilməsi müddəti 15 gündən 10 iş gününə salınıb və prosedurlar sadələşdirillib.

İnvestisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, ölkə iqtisadiyyatına sərmayə qoyuluşunun stimullaşdırılması üçün isə sahibkarlara investisiya təşviqi sənədlərinin verilməsinə başlanılıb. Təkcə 2016-2018-ci illər ərzində 292 sahibkarlıq subyektinə 333 investisiya təşviqi sənədi təqdim edilib. Bir sözlə, görülən tədbirlər, aparılan islahatlar, verilən dəstək sayəsində Azərbaycanda özəl sektor iqtisadiyyatın aparıcı qüvvəsinə, sosial sektorun əsas sahəsinə çevrilib.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Magistrlərin I Beynəlxalq elmi konfransı keçirilib

Mayın 31-də iqtisadiyyat və idarəetmə ixtisasları üzrə təhsil alan magistrlərin I Beynəlxalq elmi konfransı keçirilib.







"Fairmont Baku Flame Towers" hotelində təşkil olunan konfransda təhsil naziri Ceyhun Bayramov, təşkilat və komitə sədrləri, millət vəkilləri, rektorlar, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər. Konfransdan öncə iştirakçılar BMDM-in magistrlərinin rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar.

Beynəlxalq konfrans Dövlət himninin səsləndirilməsi ilə başlayıb.

UNEC-in rektoru, professor Ədalət Muradov magistrləri I Beynəlxalq elmi konfransın keçirilməsi münasibətilə təbrik edərək konfransın işində onlara uğurlar arzulayıb. UNEC-in elmi tədqiqatyönümlü universitetə çevrilməsi istiqamətində atdığı addımlardan danışan rektor universitetdə elmi fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə həyata keçirilən islahatlara diqqət çəkərək UNEC müəllimlərinin "Web of Science"də çap olunan məqalələrinin 76%-nin məhz son 4 ilin payına düşdüyünü bildirib. Rektor UNEC-də iqtisadiyyat elminin aktual problemlərini araşdıran 26 tədqiqat mərkəzinin yaradıldığını, həmin mərkəzdə aparılan tədqiqatın nəticələrinin dünyaca məşhur Şpringer nəşriyyatında çap olunduğunu xüsusi vurğulayıb. Kitabın Şpringer nəşriyyatında iqtisadiyyat üzrə Azərbaycandan nəşr olunan ilk və yeganə olduğunu diqqətə çatdırıb. Rektor magistr və tələbələrin elmi fəaliyyətlərinin stimullaşdırılması məqsədilə UNEC-də mükafatlandırma sisteminin yaradıldığından da söz açıb. Bildirib ki, impakt dərəcəsindən asılı olaraq nüfuzlu jurnallarda çap olunan hər bir məqaləyə görə UNEC-in bakalavr və magistrləri 4000 manatadək mükafat əldə edə bilirlər. Ə.Muradov UNEC-in ikili diplom proqramlarına da toxunub. Yeni tədris ilindən UNEC-in ABŞ-ın Linkoln Universiteti ilə magistratura pilləsi üzrə ikili diplomu reallaşdıracağını deyən rektor həmin magistrlərin təhsil aldıqları müddətdə lisenziya əsasında ABŞ-da əmək fəaliyyəti ilə də məşğul ola biləcəklərini deyib.

Təhsil naziri Ceyhun Bayramov bilik iqtisadiyyatı dövründə hərtərəfli və dayanıqlı inkişafın təmin edilməsində elm və təhsilin rolunun artdığını bildirib. İqtisadiyyatın inkişafında ali təhsilin rolunun xüsusi önəm kəsb etdiyini diqqətə çatdıran nazir Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın əsas məqsədlərinə toxunub. Strategiyanın hədəflərinə uyğun olaraq son 6 ildə ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin sayında 20,8 faiz artım müşahidə edildiyini, 2018-ci ildə 41 mindən çox şəxsin tələbə adını qazandığını vurğulayıb. Nazir ali təhsilin hamı üçün əlçatan olmasının dövlət siyasətinin prioritet istiqamətlərdən biri olduğunu deyib. 2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrində dövlət sifarişli yerlərin sayının 66 faiz təşkil etdiyini, hazırda magistratura səviyyəsində qəbul dinamikasında da artımın müşahidə olunduğunu bildirib. Nazir ölkədə elmi nəşrlərin keyfiyyətinin və sayının artırılması istiqamətində də ciddi addımlar atıldığına diqqət çəkərək, 2018-ci ildə Azərbaycanın Cənubi Qafqaz regionunda inkişaf dinamikasına görə lider olduğunu vurğulayıb.

UNEC-in Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin (BMDM) direktoru, dosent Fariz Əhmədov bildirib ki, BMDM-də 11 ixtisas və 39 ixtisaslaşma üzrə 4 dildə tədris aparılır. Mərkəzdə 1200-dək yerli və əcnəbi magistrin təhsil aldığını deyən F.Əhmədov onların beynəlxalq və elmi uğurları barədə də danışıb. UNEC-in magistrlərinin 4 məqaləsinin "Web of Science"də indeksləşmiş jurnallarda dərc olunduğunu qeyd edib. F.Əhmədov konfransa yerli və əcnəbi magistrlər tərəfindən 385 məqalənin təqdim edildiyini bildirib.

Plenar iclasda UNEC magistrləri 4 dildə təqdimatla çıxış ediblər.

Sonda təhsil naziri Ceyhun Bayramov magistrlərə sertifikatları təqdim edib.

Konfrans öz işini plenar iclaslarda davam etdirəcək. İyunun 2-dək davam edəcək konfransda iqtisadiyyat və idarəetmə ixtisaslarında təhsil alan həm yerli, həm də xarici ölkələrdən olan gənclər bir araya gələrək magistr tədqiqatlarının nəticələrinin paylaşılması, elmi araşdırmaların keyfiyyətinin artırılması istiqamətində fikir mübadiləsi aparacaqlar.

1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür





# Körpə fidanların rəngli dünyası

**İri şüşə qapını açıb foyeyə daxil olan kimi himnimizin sədalarını eşidirik. Möhtəşəm musiqi üçmərtəbəli binanın hər yerinə yayılıb. Amma bu ifa tamam başqadır, bir ayrı gözəldir, bir ayrı şirindir. Axı onu balacalar - bağça uşaqları oxuyur. Səsdən tutub ifanın izi ilə birbaşa zala qalxırıq. Və möhtəşəm mənzərə ilə qarşılaşırıq - bir əllərində Azərbaycan bayrağı, o biri əlləri ürəklərinin üzərində olan gələcəklərimiz himnimizi oxuyub bitirirlər. Özü də düzgün ritmlə, heç bir sözü səhv tələffüz etmədən, çaşmadan:**

**- ... Şanlı vətən, şanlı vətən,**
**Azərbaycan! Azərbaycan!**



## "Kim özünü pis aparsa, onu tutacam"

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ərəfəsində Bakının Səbail rayonunun Bayıl yaşayış sahəsində yerləşən 157 nömrəli uşaq bağçasındayıq. Bağçadakı qrupları bir-bir gəzirik. Güləruz, bal kimi şirin balalarla söhbətləşirik, onları izləyirik. Uşaqların saf dünyasını böyüklərin gözü ilə seyr edirik. Bu dünyada nələr yoxdu ki?! Hərəsi bir nağıl dünyası qurub öz aləmində. Balaca Uğur peşəkar sürücüdür - maşınını dolanbaclardan keçirərək, qəza törətmədən sürür. Fatma həkim şirin panda kuklasını müayinə edir. Aysel qızını - sevimli gəlinciyini yatızdırmağa çalışır. Turalın başı rənglər dünyasında rəsm çəkməyə qarışıb...

Məktəbəhazırlıq qrupunun uşaqları isə 28 May Respublika Gününə həsr olunmuş bayrama və buraxılış tədbirinə hazırlaşırlar. Sinif otağındakı məşğələ bitəndən sonra musiqi zalına gedirlər. Hazırladıqları səhnəciklərin, mahnıların, rəqslərin məşqini edirlər. O qədər həvəsli və sevinclidirlər ki... Axı bağçada son günlərini keçirirlər. Bir neçə aydan sonra elə özləri boyda olan çantalarını çiyinlərinə asıb, məktəbə gedəcəklər. Əksəriyyəti indidən gələcək peşəsini seçib. Turxan böyüyəndə polis olmaq istəyir - "kim özünü pis aparsa, onu tutacam". Nadir həkim olacaq - "xəstələrin hamısını sağaldacam". Məryəm isə "ağ, yekə gəlinlik paltarı geyinib, başına fata qoyub, "gəlin olacam" deyir... Bu körpə fidanları öz təmiz nağıl dünyaları ilə baş-başa buraxıb, müəllimləri ilə söhbətləşirik.















## Zəmanə uşaqları

Məktəbəhazırlıq qrupunun müəllimi Günel Rəsulzadə artıq 9 ildir burada çalışır. Özünəməxsus təlim metodu var: "Fərdi və kollektiv işlərdə uşaqlara sərbəstlik verməyə çalışıram. Onları nəyəsə məcbur etmirəm. Hətta məşğələni də çox vaxt onların istəklərinə uyğun seçirik. Gündə 2-3 dəfə sinif məşğələsi keçirik. Uşaqlar ətraf aləm haqqında ümumi anlayışları bilirlər. Hərfləri, rəqəmləri çap şəklində öyrədirik. Keçdiyimiz dərsləri internet, televizor vasitəsilə uşaqlara əyani şəkildə öyrətməyə üstünlük veririk. Çünki onda həmin bilgini daha yaxşı qavrayırlar və məktəbə 70 faiz hazır gedirlər. Həftədə 2 dəfə isə musiqi məşğələsi olur. Musiqi müəlliminin rəhbərliyi altında müxtəlif musiqilər, rəqs nümunələri, səhnəciklər hazırlayırıq. Uşaqlar günorta yuxudan durandan sonra stolüstü, didaktik oyunlar, kompüter oyunları oynayırıq. Havalar isti olanda isə həyətdə müxtəlif oyunlarla fəaliyyətimizi davam etdiririk. Müşahidələrimə əsasən deyə bilərəm ki, uşaqların intellekti ilbəil artır. Müasir dövrə uyğun olaraq internetə, kompüterə maraq çoxdur. Amma bununla belə, xarici dili qavramaları yüksəkdir. 5 il əvvəlki uşaqlarla indikilər arasında fərq çoxdur. Uşaqların ingilis dili bilgisi çox təkmilləşib. İngilis dilində olan bir mahnını iki dəfə oxuyuram, vəssalam, o saat öyrənirlər. Dünya haqqında anlayışları çoxdur. Sətiraltı zarafatı tuturlar, yumor hissləri gözəl inkişaf edib. Bu da çox yaxşı haldır".

Nahidə Əmirova 10 ilə yaxındır bağçada musiqi müəllimidir. Deyir ki, uşaqlarla işləmək çox maraqlı, zövqlü və məsuliyyətlidir: "Uşaqları çox sevdiyim üçün bağçada işləməyi seçmişəm. Bu gül balaları sevməmək, əzizləməmək, öyrətməmək olar?! Onlar mələkdirlər. Hamısını öz balam kimi çox istəyirəm. Onlar da məni çox istəyirlər. Özü də çox ağıllıdırlar. Bilirsiniz, müasir uşaqların marağını cəlb etmək çətindir. Ona görə bəstəkar mahnıları ilə yanaşı müasir mahnıları da araşdırıb tapıram, rəqslər qururam ki, xoşlarına gəlsin. İndiki uşaqların dünyagörüşü də daha genişdir. Hansı mahnını dinlədirəmsə, deyirlər, biz bu mahnını bilirik, internetdən eşitmişik. Tez də qavrayırlar. Məntiqləri yaxşı inkişaf edib".

## "Bağçadakı şərait ən müasir tələblərə uyğunlaşdırılıb"

157 nömrəli uşaq bağçasının direktoru Banuçiçək Əzizova bağça barədə ümumi məlumat verir. Onun sözlərinə görə, uşaq bağçasının ikimərtəbəli binası 100 il əvvəl inşa olunduğu üçün əsaslı təmirə ehtiyacı var idi. Odur ki, Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində bina sökülərək, yerində üçmərtəbəli müasir bina tikilib. 2018-ci il martın 6-da isə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bu təhsil müəssisəsinin açılış mərasimində iştirak edib: "Mən ölkə başçısı cənab İlham Əliyevə və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya uşaqlara göstərdiyi qayğıya, diqqətə görə minnətdaram. Onların sayəsində belə gözəl, rahat şəraitdə işləyirik. Uşaq bağçasındakı şərait ən müasir tələblərə uyğunlaşdırılıb, bütün işlər yüksək keyfiyyətlə və zövqlə yerinə yetirilib. Binanın giriş hissəsi, foye, qrup otaqları və zallar burada tərbiyə alan azyaşlılara uyğun xüsusi dizaynla işlənib. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib".

Direktor söyləyir ki, ümumi sahəsi təxminən 2 min kvadratmetrə yaxın olan bağçanın binasında 100 uşaq tərbiyə alır. Burada fəaliyyət göstərən 5 qrupun hər biri üçün geniş oyun və yataq otaqları, musiqi və əyləncə zalları, tibb kabineti, müasir avadanlıqla təchiz olunmuş mətbəx və yeməkxana tikilib. Binada müşahidə kameraları, yanğındanmühafizə sistemi quraşdırılıb. Bir sözlə, bağçada yaradılan şərait uşaqların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmağa imkan verir, həmçinin onların bilikli və zəngin dünyagörüşə malik bir vətəndaş kimi formalaşmasında mühüm rol oynayır: "Binanın bünövrəsi nə qədər vacibdirsə, uşaqların da "özülü"nün möhkəm olması o dərəcədə əhəmiyyətlidir. Uşaqların özülü isə bağçada qoyulur. Hər şeyi bağçada öyrənməyə başlayırlar. Etika, estetika məhz buradan gəlir. Ona görə də biz bütün etik qaydaları, süfrə mədəniyyətini belə balacalara öyrədirik. Uşaqların qidalanmasına xüsusi önəm veririk. Kənardan bağçaya hansısa qidanın gətirilməsi qəti qadağandır. Ziyanlı qidalardan qaçırıq. Meyvə-tərəvəz, ət və süd məhsullarına və qızartma deyil, sobada bişmiş yeməklərə üstünlük veririk. Ən vacibi odur ki, qida təzə-təzə hazırlanıb, qruplara paylanılır. Yeməklər arası tərəvəzlər, meyvə şirəsi, mövsümi meyvələrdən kompot bişirilib verilir. Əlbəttə, tərbiyə ilə bərabər təlim də çox əhəmiyyətlidir. Çalışdığımız qədər uşaqları məktəbə yaxşı hazırlayırıq. Bizdə məşğələ oyun şəklində keçir. Uşaqlara maraqlı olsun deyə buna daha çox üstünlük verirəm ki, balacalar şən əhvali-ruhiyyə ilə məşğələ keçsinlər. Həm əylənsinlər, həm də öyrənsinlər. Bundan başqa, uşaqların musiqi zövqünün formalaşdırılmasına önəm veririk. Hər biri himnimizi əzbər bilir və oxuyur. Onların vətənpərvərlik ruhunda böyümələrinə daha çox diqqət yetiririk. Arzum da odur ki, uşaqların hamısı vətənimizə, dövlətimizə layiq övlad kimi böyüsün".

*Onlar hələ körpə fidandırlar, tər qönçədirlər. Suyunu, gübrəsini vaxtında və qədərində versək, lazımi qulluğu edib qayğısına qalsaq, düzgün yetişdirsək, böyüyüb arzuladığımız çiçək olacaqlar. Bunun üçünsə peşəkar və işini sevən bağbanlar gərəkdir. Elə bu bağçadakılar kimi. Əkdiyiniz ağacların gül-çiçəyinin solmaması diləyi ilə...*

***Xəyalə MURADLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Beynəlxalq "Xəzər Neft və Qaz" konfransı başa çatıb

Bakıda keçirilən 26-cı Beynəlxalq "Xəzər Neft və Qaz" konfransı başa çatıb.

AZƏRTAC xəbər verir ki, konfransın ikinci günündə "Xəzər dənizinin ofşor yataqlarında 70 illik hasilat tarixi", "Ətraf mühit və sənaye təhlükəsizliyi üzrə davamlı inkişafa dair kompleks yanaşma", "Kəşfiyyat və hasilat paneli: gələcək potensialın açarı", "Ağıllı" infrastruktur sayəsində istehsal səmərəliliyi" mövzularında müzakirələr aparılıb.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə Azərbaycan neft-qaz sənayesinin tarixindən, əldə olunan nailiyyətlərdən və qazanılan uğurlardan danışıb. O, cari ildə Azərbaycanın neft tarixində mühüm əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi"nin imzalanmasının 25-ci ildönümünün qeyd ediləcəyini deyib. Bildirib ki, Azərbaycan bu vaxtadək Xəzərdəki "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarından 280 milyon ton mənfəət nefti əldə edib. İndiyədək "Azəri-Çıraq-Günəşli"dən 483 milyon ton neft və 157 milyard kubmetr təbii qaz hasil olunub.

Azərbaycan neftinin dünya bazarına çıxarılmasında mühüm rol oynayan boru kəmərləri layihələrindən danışan X.Yusifzadə bildirib ki, indiyədək 508 milyon ton Azərbaycan nefti dünya bazarına çıxarılıb. Bu həcmin 383 milyon tonu Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəməri ilə nəql edilib.

Akademik qeyd edib ki, Azərbaycan neft sənayesində çox mühüm yeri olan Neft Daşlarının bu il 70 illiyi tamam olur. Neft Daşlarındakı yataqlardan bu vaxtadək 178 milyon ton neft çıxarılıb.

Deyib ki, Azərbaycanın təbii qaz resurslarının Avropaya nəqlini nəzərdə tutan "Cənub qaz dəhlizi" mənbə və marşrutların şaxələndirilməsi, enerji təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Üç seqmenti tamamlanan layihə çərçivəsində TANAP-la indiyədək Türkiyəyə 1,9 milyard kubmetr Azərbaycan qazı nəql olunub.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionu üzrə əlaqələr, xarici işlər və strategiya üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli isə şirkətin Xəzər regionundakı 27 illik fəaliyyətindən danışıb. 25 illiyini qeyd edən "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin əhəmiyyətini vurğulayan BP rəsmisi qeyd edib ki, yataqlar blokundan bu vaxtadək 3,5 milyard barel neft hasil olunub. AÇG-nin işlənməsinə ümumilikdə 36 milyard dollardan çox sərmayə qoyulub: "BP və tərəfdaşları bu vaxtadək Azərbaycanın neft-qaz layihələrinə 72 milyard dollardan çox investisiya yatırıb. Şirkət 25 ildə Azərbaycana 44 milyard kubmetr səmt qazını təmənnasız verib".

BP-dəki işçilərin 90 faiz millilləşdirildiyini deyən B.Aslanbəyli bildirib ki, 70-dək azərbaycanlı şirkət üzrə müxtəlif ölkələrdə rəhbər vəzifələrdə çalışır.

SOCAR-ın ekologiya üzrə vitse-prezidenti Rəfiqə Hüseynzadə şirkətin ekoloji siyasətindən və həyata keçirdiyi layihələrdən danışıb. O, atmosferə atılan qazın minimuma endirilməsi, şamda yandırılan qazın azaldılması istiqamətində görülən işlərdən bəhs edib. Bu sahədə Dünya Bankı və BMT ilə birgə reallaşdırılan layihələrin əhəmiyyətini qeyd edib.

SOCAR-ın geologiya və geofizika məsələləri üzrə vitse-prezidenti Bəhram Hüseynov bildirib ki, şirkətin kəşfiyyat sahəsində gördüyü işlərdən, quyuda və dənizdə aşkar olunmuş yataqlardan, aparılan seysmik tədqiqatlardan danışıb.

"BP Azerbaijan" şirkətinin geoloji kəşfiyyat üzrə vitse-prezidenti Qreq Rayli isə şirkətin bu il ölkəmizdə dənizdə və quruda aparacağı kəşfiyyat, seysmik qazma işlərindən bəhs edib.

Konfrans çərçivəsində SOCAR və IBM-in birgə müəssisəsi olan "Caspian Innovation Centre" (CIC) MMC-nin yaratdığı quyuların layihələndirilməsi üzrə süni zəka texnologiyası əsasında prototip alət təqdim edilib. SOCAR-ın yataqların işlənməsi üzrə vitse-prezidenti Yaşar Lətifov deyib ki, "Aliyə" adlanan yeni alət əvvəl qazılmış quyulara dair məlumatlar əsasında bir neçə saniyə ərzində mürəkkəb analitik əməliyyatları yerinə yetirə bilir. Bildirilib ki, "Aliyə" SOCAR-ın əməliyyatlarının tammiqyaslı rəqəmsallaşmasına doğru atılan ilk addımdır.

İki gün davam edən və neft-qaz sektorunun, eləcə də bu sektor ilə əlaqəli müxtəlif sahələrin rəhbərləri üçün də əsas platforma olan konfransa 30 ölkədən 600-dən çox nümayəndə qatılıb.

# Gələn il yenidən görüşənədək!..

26-cı Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi, onunla yanaşı keçirilən "Caspian Power 2019" - Energetika və Alternativ Enerji Sərgisi yeni əməkdaşlıq əlaqələrinin yaranmasına, perspektiv layihələrin əsasını qoymağa imkan verdi.







Bu tədbirlər neft-qaz sektorunun və energetika sahəsinin aparıcı təmsilçiləri ilə görüşmək, ən son texnoloji məhsulları görmək, yeni səmərəli əlaqələr qurmaq və mövcud faydalı əməkdaşlığı genişləndirmək üçün şərait yaratdı. Təsadüfi deyil ki, müsahibimiz olan iştirakçıların hər biri bu sərgilərin müstəsna əhəmiyyətini qeyd etdi, eləcə də onların yüksək səviyyədə təşkilini vurğuladı.

İtaliyanın "EMIFLEX" şirkətinin prezidenti Giovanni Lai dedi:

- Azərbaycana ikinci dəfədir gəlirik. Bu o deməkdir ki, birinci səfərimizdən məmnun qalmışıq. Ölkəniz çox xoşumuza gəlir, üstəlik, xalqınız çox mehribandır.

Gəlişimizin məqsədi şirkətimizi Azərbaycanda tanıtmaq, burada tərəfdaşlar tapmaq, nəticədə ölkələrimiz arasında iqtisadi əlaqələrin genişlənməsinə yeni töhfə verməkdir. Şirkətimizin fəaliyyətinin xeyli hissəsini neftin və qazın emalı zamanı işlədilən avadanlıqların istehsalı təşkil edir. Bu avadanlıqlar yüksək temperaturun yarada biləcəyi genişlənmələrin qarşısını alır. Bunlar irihəcmli kondensatorlardır.

Biz Avropada Fransa, İspaniya, İsveçrə, Yunanıstan, Rumıniya ilə əməkdaşlıq edirik. Əvvəllər əməkdaşlığımızın böyük hissəsi qaz boruları ilə bağlı olub. Son vaxtlar ən çox neft emalı zavodları ilə işləyirik.

Müəssisələrimizdə kiçik həcmli kondensatorlar da buraxılır. Onlardan istilik sistemində istifadə olunur. Bu sahədə Rusiya ilə möhkəm əlaqələr qurmuşuq. Məhsulumuz çoxmərtəbəli evlərdə çox gərəklidir. Həmin avadanlıqları keçən ay Kiyevdə keçirilmiş sərgidə də nümayiş etdirdik. Tədbir boyu bizə hündür binaların istilik sistemi ilə məşğul olan müəssisələrin rəhbərləri müraciət edir və söyləyirdilər ki, bu sahədə bir sıra həlli vacib problemlər mövcuddur. Hündür binaların istilik sistemində bəzən hətta qəzalar baş verir, böyük həcmdə soyuq və isti su itkisi olur. Biz öz fəaliyyətimizlə məhz bu məsələləri ciddi nəzarətdə saxlaya bilirik.

Fəaliyyətimizin bütün sahələrində Azərbaycanla da əməkdaşlıq əlaqələri yaratmaq istəyirik. Neft-qaz sərgisinə də məhz bu məqsədlə gəlmişik. Hamımız yaxşı bilirik ki, insan bir məhsulu yetişdirmək üçün əvvəlcə torpağa toxum səpir, sonra cücərtilərə qulluq edir, nəhayət, çəkdiyi zəhmətin bəhrəsini görür. Qəribə görünsə də, bu sərgini gələcəyin böyük əməkdaşlığının və tərəfdaşlığının "toxum"larının səpildiyi məkana bənzədirəm.

Ukraynanın "INTERPIPE" şirkətinin satış üzrə meneceri İvan Dextyuk fikirlərini belə ifadə etdi:

- "INTERPIPE" neft-qaz, elektrik istehsalı, mexanika və konstruksiya sahələrində istifadə üçün nəzərdə tutulmuş polad boruların qlobal miqyaslı istehsalçılarındandır. Məhsullarımız Ukraynadan əlavə MDB məkanında, ABŞ-da, Avropa və Yaxın Şərq regionlarında yerləşən kommersiya ofisləri vasitəsilə dünyanın 80 ölkəsinə ixrac edilir.

"INTERPIPE"ni Azərbaycanda mən təmsil edirəm. Ölkənizdəki istehlakçılarla uzunmüddətli münasibətlərimiz var. SOCAR əsas tərəfdaşlarımızdan biridir. Qurumun ayrı-ayrı bölmələri ilə sıx əməkdaşlıq edirik.

Azərbaycan bazarını məhsulla təchiz etmək bizim üçün həmişə xoşdur. Son 20 ildə əlaqələrimiz müntəzəm davam edir və daim satışın həcmini artırmağa çalışırıq.

Neft və qaz sərgisi əslində tərəfdaşlarımızla bir daha görüşmək, yeni şirkətlərlə tanış olmaq üçün münasib vasitəyə çevrilib. Bu mənada tədbiri yüksək dəyərləndiririk. Hazırkı sərgidən də gözləntilərimiz çoxdur.

Həmişə olduğu kimi, tədbirdə məmnuniyyətlə iştirak edirik. Sərginin yüksək səviyyədə təşkilinə valeh olmuşuq.

Fransanın "Schneider Electric" şirkətinin Mərkəzi Asiyada tərəfdaşlıq və sənaye üzrə direktoru Osman Sahinin də təəssüratları xoşdur:

- Şirkətimizin 180 illik tarixi var. Dünyanın 100-dən çox ölkəsində fəaliyyət göstəririk. Bu ölkələrdə 130 mindən çox işçimiz çalışır. Şirkətin 2018-ci ildəki dövriyyəsi 26 milyard avro təşkil edib.

"Schneider Electric" beynəlxalq şirkətdir. Onun mərkəzi ofisləri Paris və Honkonqda yerləşir.

10 ildən çoxdur Azərbaycanda da fəaliyyət göstəririk. Ölkənizdə 20 nəfər işçimiz, eləcə də distribüterlərimiz var. "Schneider Electric" elektrik enerjisi və avtomatlaşdırma sahəsində ixtisaslaşmış şirkətdir. Doğrudur, Azərbaycanda fabrikimiz yoxdur. Lakin qonşu Türkiyədə bir neçə müəssisəmiz fəaliyyət göstərir. Bununla belə, Azərbaycanda enerji və avtomatlaşdırma istiqamətində genişmiqyaslı işlər aparırıq. Burada həm özümüz bir sıra layihələr həyata keçiririk, həm də bəzi layihələrə dəstək veririk. Fəaliyyətimizə elektriklə bağlı bütün işlər, əgər belə demək mümkünsə, lampanı yandırmaq kimi kiçik bir hərəkətdən böyük layihələrin icrasınadək çoxsaylı əməliyyatlar daxildir. Bakıda hava limanından başlayaraq nəhəng binalaradək hər yanda əməyimizin nişanələrini görmək mümkündür.

Bölgələrdə də müəyyən işlər aparmışıq. Son vaxtlar Tovuzda böyük bir layihə gerçəkləşdirmişik. Ceyrançöl ərazisində geniş sahədə elektrik işləri görmüşük. Şəmkir və Samux rayonlarında da fəaliyyətimiz olub.

Azərbaycanda çalışdığımız ilk illərdən Beynəlxalq Xəzər Neft və Qaz, eləcə də "Caspian Power" sərgilərində iştirak edirik. Burada bir sıra qabaqcıl şirkətlərlə, səriştəli mütəxəssislərlə tanış olmaq mümkündür. İşgüzar söhbət etmək, təcrübə mübadiləsi aparmaq imkanı var. Lazım gəldikdə bir sıra layihələrin həyata keçirilməsində bir-birimizə yardımçı da oluruq.

Həmsöhbətlərimiz növbəti sərgilərdə iştirak etmək arzusunda olduqlarını da bildirdilər. Onlar fəaliyyət göstərdikləri sahələrdə bu tədbirlərdən faydalandıqlarını vurğulamaqla yanaşı, Azərbaycanda qonaq olmaqdan məmnun qaldıqlarını, burada insanlardan xoş aura aldıqlarını söylədilər.

Neft, qaz və energetika sərgilərinin ənənəyə çevrilməsində, şübhəsiz ki, bütün bu amillərin də öz yeri var. Odur ki, iştirakçılar gələn il Bakıda növbəti sərgilərdə görüşəcəklər.

***Flora SADIQLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "Caspian Oil & Gas" və "Caspian Power" sərgiləri çərçivəsində "Bizimkilər" sessiyası təşkil olunub

Bakı Sərgi Mərkəzində keçirilən "Caspian Oil & Gas 2019" və "Caspian Power 2019" sərgiləri çərçivəsində mayın 31-də ilk dəfə olaraq tələbələr üçün "Bizimkilər" sessiyası təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə xaricdə təhsil almış azərbaycanlı mütəxəssislər öz iş təcrübələrini bölüşüblər.

Sessiyanın moderatoru, Şotlandiyanın "Wood" şirkətinin cihazqayırma üzrə baş mühəndisi Pərviz Qafarov çalışdığı müəssisə barədə məlumat verib. Qeyd edib ki, şirkət əsasən ölçü cihazlarının hazırlanması sahəsində ixtisaslaşıb. Bu məhsulların ərsəyə gəlməsi üçün müasir proqram və yeni texnologiyalardan istifadə edilib. Moderator diqqətə çatdırıb ki, təmsil etdiyi şirkət son 20 ildə bu sahədə böyük nailiyyətlər qazanıb.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetini bitirdiyini deyən P.Qafarov sonrakı illərdə bir çox ölkədə, o cümlədən ABŞ, İrlandiya, Norveç, Qazaxıstan, Gürcüstan və digər ölkələrin tanınmış şirkətlərində mütəxəssis kimi çalışdığını vurğulayıb.

"SOCAR KBR" şirkətinin baş layihə mühəndisi Firudin Səfərov, Əbu-Dabi Dövlət Neft Şirkətinin ("ADNOC") baş mühəndisi Tural Yusubov neft-qaz sektorunda aktual məsələlərə toxunaraq texnoloji mühəndislik və yeni texnologiyalardan söz açıblar.

Məruzələr tələbələr tərəfindən maraqla qarşılanıb.

# Avropa Gənclər Yay Olimpiya Festivalına 50 gün qalması münasibətilə tədbir keçirilib

Avropa Gənclər Yay Olimpiya Festivalının başlamasına 50 gün qalması münasibətilə mayın 31-də Arif Hüseynzadə adına 20 nömrəli tam orta məktəb-liseydə "Olimpiya mədəniyyəti və təhsil" proqramı çərçivəsində tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə, təhsil nazirinin müavini Firudin Qurbanov, MOK baş katibinin müavini Azər Əliyev, Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, festivalın təşkilat komitəsinin nümayəndələri, 20 nömrəli məktəb-liseyin müəllimləri və şagirdləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Azərbaycan və İspaniya xalqlarının dostluq əlaqələri, tarixi və adət-ənənələri ilə bağlı rəsm sərgisinə baxıblar.

Sonra İspaniya və Azərbaycan mədəniyyətinin, milli mətbəxinin nümunələri təqdim olunub.

Məktəbin direktoru Səadət Veysova çıxış edərək belə tədbirlərin şagirdlərin biliklərinin və dünyagörüşlərinin artırılmasında önəmini qeyd edib. İspaniya xalqının, mədəniyyətinin və incəsənətinin ölkəmizdə çox sevildiyini vurğulayan direktor bildirib ki, tədbirin məqsədi şagirdlərin bu ölkənin tarixi və mədəniyyəti haqqında ətraflı məlumatlandırılmasıdır. Direktor ölkəmizdə keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalına marağın böyük olduğunu vurğulayaraq bu tədbirin də yüksək səviyyədə təşkil ediləcəyinə əminliyini bildirib.

Sonra məktəbin şagirdləri Azərbaycan-İspaniya dostluğuna aid tamaşalar göstəriblər.

Tədbirdə festivalın proqramına daxil olan gimnastika, güləş, boks idman növləri üzrə ustad dərsləri keçirilib.

Festivalla əlaqədar silsilə tədbirlərin keçirildiyini bildirən MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə "Olimpiya mədəniyyəti və təhsil" proqramının 48 məktəbi əhatə etdiyini bildirib. Qeyd edib ki, Azərbaycan da bu gün dünyada idman dövləti kimi tanınır. Azərbaycanın yüksək səviyyədə evsahibliyi etdiyi mötəbər turnirlər ölkəmizdə yeniyetmə və gənclərin idmana marağının artırılmasında da mühüm rol oynayır. Bu baxımdan iyulun 21-28-də ölkəmizdə keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalı da böyük əhəmiyyət daşıyır.

"Olimpiya mədəniyyəti və təhsil proqramı" cari ilin iyulunda Bakıda keçiriləcək Avropa Gənclər Yay Olimpiya Festivalının irsi çərçivəsində həyata keçirilir. Proqram Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya Həmrəyliyi Fondunun maliyyə dəstəyi, Azərbaycan Milli Olimpiya Komitəsinin təşkilatçılığı, "Bakı 2019" Avropa Gənclərinin Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi, həmçinin Təhsil, Gənclər və İdman nazirliklərinin köməyi ilə reallaşdırılır. Proqramın məqsədi Avropa Olimpiya Komitəsinə üzv ölkələrin gəncləri arasında və onların vasitəsilə mədəniyyəti, idmanı və Olimpiya hərəkatını təşviq etməkdir.

# Heydər Əliyev Fondu Şəkidə və Pirallahıda iftar süfrəsi təşkil edib



Heydər Əliyev Fondu tərəfindən müqəddəs ramazan ayı münasibətilə növbəti iftar süfrəsi mayın 30-da Şəki şəhərində və Pirallahıda təşkil olunub.

AZƏRTAC xəbər verir ki, din xadimlərinin, şəhid ailələri üzvlərinin, Qarabağ müharibəsi əlilləri və imkansız ailələrdən olan insanların iştirak etdiyi iftar mərasimlərində "Qurani-Kərim"dən ayələr oxunub, dualar edilib, ramazan ayının fəzilətləri barədə söhbət açılıb.

Bildirilib ki, xalqımız Ramazan bayramını hər il böyük məmnunluq hissi ilə qeyd edir. Müqəddəs Kitabımız "Qurani-Kərim"in nazil olduğu ramazan ayı insanlar arasında birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin təntənəsini nümayiş etdirir. Bu ayda müsəlmanlar Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Mübarək ramazan günlərində iftar süfrəsinin təşkil edilməsinin cəmiyyətimizin vahidliyinin, ümumi amallar naminə ölkəmizdə dövlətlə din arasında sıx birliyin bariz nümunəsi olduğu vurğulanıb.

Mərasimdə xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün diləklər edilib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən övladlarının ruhuna dualar oxunub.

# Şəhid zabitimiz Qaxda torpağa tapşırılıb



Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttinin Ağdam rayonu istiqamətində düşmən snayperinin açdığı atəş nəticəsində şəhid olan Azərbaycan Ordusunun zabiti, mayor Omarov Aqil Akif oğlu mayın 31-də Qax rayonunun Lələpaşa kəndində torpağa tapşırılıb.



AZƏRTAC xəbər verir ki, şəhidin dəfn mərasimində Müdafiə Nazirliyinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, rayon icra hakimiyyətinin rəsmiləri, şəhidin doğmaları, ictimaiyyət nümayəndələri, kənd sakinləri iştirak ediblər.

Dəfn mərasimində çıxış edənlər şəhidin ailəsinə başsağlığı verib, torpaqlarımızın azadlığı uğrunda həlak olan qəhrəman oğullarımızın qanının yerdə qalmayacağını, tezliklə düşməndən qisas alınacağını bildiriblər.



Şəhidin nəşi yaylım atəşi altında torpağa tapşırılıb, məzarı üstünə əklil və qərənfillər qoyulub. Şəhidin tabutu üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 3 may 2019-cu il tarixdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün mənzillərin satın alınması ilə əlaqədar açıq tender metodu ilə keçirilmiş satınalma müsabiqəsinin qalibləri fiziki şəxs Asif Akif oğlu Əsədzadə, fiziki şəxs Misirxan Feyruz oğlu Əliyev və "Saray-H" MTK olmuşdur.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 29 mart, 12 aprel və 11 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına siyirtmələrin satın alınması məqsədilə dərc edilmiş tenderdə 05 iyun 2019-cu il qeyri iş günü olduğundan tender təkliflərinin açılışı tarixi 07 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarə olunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (agali.mirzeyev@azersu.az +99412 431-47-67 (2249).

*Tender komissiyası*

# Ermənistan ordusu iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 22 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Cəvahirli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 05 mart 2019-cu il və 19 mart 2019-cu il tarixli nömrələrində Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) tərəfindən malların, işlərin və xidmətlərin satın alınması məqsədilə dərc edilmiş elanlar üzrə keçirilən 5 LOT-dan ibarət açıq tenderin nəticələrinə əsasən **Lot 2:** ARDNF-nin 20 illik yubileyi çərçivəsində malların (işlərin və xidmətlərin) satın alınması üçün təşkilati şirkətin seçilməsi üzrə **"Red Komyunikeyşns" MMC** qalib olmuşdur.

Qalib şirkətlə 24 may 2019-cu il tarixli müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

# Baharın naxışları

**Göz işlədikcə uzanan çöllər, tarlalar ağ-boz libasını çoxdan dəyişərək yamyaşıl, al-əlvan don geyinib.**

Elə ki paytaxtın hüdudlarından çıxıb istənilən bölgəyə üz tutursan, qarşında təbiətin nəfəsi və insan əllərinin zəhməti ilə cana gələn zəmilərin, bağ-bostanın gözoxşayan mənzərəsi açılır. Bu, həm gözəllikdir, həm də yayın bol məhsulunun, payızın aşıb-daşan ruzisinin müjdəsi...

İlin bu füsunkar çağlarından quşlar da vəcdə gəlib. Qışı doğma yurdda keçirənlər də, uzaqlardan təzəcə uçub gələnlər də səs-səsə veriblər, öz bahar nəğmələrini oxuyurlar.

Bənövşənin, nərgizin, yasəmənin ardınca qızılgüllər açıb, zanbaqlar pardaqlanıb. Necə deyərlər, yurdumuzun hər yerində gül gülü çağırır, çiçək çiçəyi...

*Foto Ağaəli MƏMMƏDOVUNDUR, "Azərbaycan"*







## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Sumqayıt şəhəri, S.Vurğun küçəsi, 1183 ünvanında yerləşən 94.13 hektar ərazisində inşa olunacaq avtomobil dayanacağının layihə-smeta sənədlərinin hazırlanması işlərinin satın alınması ilə əlaqədar keçirilmiş təkliflər sorğusu prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Təkliflər sorğusunun nəticələri haqqında Tender komissiyasının qərarına əsasən "AZİN CONSTRUCTİON" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

*Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən 09.04.2019-cu il tarixdə Yaqub Şaban oğlu İmanovun adına verilmiş AR 040502 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

## Bildiriş

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Avtomobil Nəqliyyatı İdarəsinin "Azərbaycan" qəzetinin 31 may 2019-cu il tarixli buraxılışında dərc edilmiş açıq tender elanı texniki səbəblərə görə etibarsız sayılır.

*Tender komissiyası*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Məzahir Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Şəmsəddin Hacıyevə əzizi

**BEHBUD HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Aqil Abbasa əzizi

**HAFİZ RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9054
Sifariş 1779
Qiymətı 40 qəpik